**Azərbaycan Banklar Assosiasiyasında**

**2022-ci il ərzində görülmüş işlərə dair**

# HESABAT

Bakı - 2023

**1. BANK SEKTORUNA DAİR TƏŞƏBBÜSLƏR** (göndərilmiş məktublar və digər işlər)

1. 11 yanvar 2022-ci il, ARMB, İmtiyazlı səhmlər haqqında;
2. 13 yanvar 2022-ci il, ARMB, Kassa qaydaları ilə əlaqədar aydınlaşdırılmalı məqamlar;
3. 18 yanvar 2022-ci il, ARMB, Xüsusi ehtiyat fondları ilə bağlı təkliflər və suallar;
4. 19 yanvar 2022-ci il, AR İN, CM və CPM-nə dəyişiklilər ilə bağlı layihəyə rəylər;
5. 21 yanvar 2022-ci il, Ədliyyə Nazirliyi, İcra Məcəlləsinə təkliflər;
6. 26 yanvar 2022-ci il, banklara, Bank işində istifadə edilməyən aktivlər haqqında;
7. 03 fevral 2022-ci il, AR ƏƏSMN, İcra məsələləri ilə bağlı məlumatın verilməsi;
8. 04 fevral 2022-ci il, banklara, İpoteka və Kredit Zəmanət Fondu üzrə təkliflər;
9. 10 fevral 2022-ci il, ARMB, "Bank hesablarının açılması, aparılması va bağlanması Qaydası"na dair;
10. 14 fevral 2022-ci il, AR ƏN, "Elektron notariat" informasiya sistemi vasitəsilə müqavilələr;
11. 14 fevral 2022-ci il, ARMB, Aktivlərin təsnifləşdirilməsi Qaydası;
12. 15 fevral 202-ci il, baklara, SİF və AKİA üzrə təkliflər;
13. 16 fevral 2022-ci il, AR KM, ABA tərəfindən hüquqi rəy;
14. 01 mart 2022-ci il, DVX, Mərc oyunları ilə əlaqədar dəyişiklik;
15. 01 mart 2022-ci il, banklara, BKM İnterçeync xidmət haqlarının dəyişdirilməsi barədə;
16. 10 mart 2022-ci il, BACEE, ABA müxbir münasibətlər;
17. 16 mart 2022-ci il, banklara, Antiinflyasiya təkliflər;
18. 31 mart 2022-ci il, banklara, ABA - ETSN - Ting paylama aksiyası;
19. 01 aprel 2022-ci il, banklara, McKinsey sorğu;
20. 01 aprel 2022-ci il, banklara, VM-nə rəy və təkliflərin verilməsi haqqında;
21. 05 aprel 2022-ci il, banklara, ABA - ETSN - Ağacəkmə kampaniyası;
22. 15 aprel 2022-ci il, AR İN, Elektron ticarət zamanı ödənişlər;
23. 20 aprel 2022-ci il, banklara, Ali Məhkəməyə hüquqi rəyin verilməsi;
24. 21 aprel 2022-ci il, banklara, BKM Kollektiv Saziş;
25. 22 aprel 2022-ci il, banklara, Banklararası Şahmat Çempionatı;
26. 22 aprel 2022-ci il, banklara, VM-ə dəyişiklik layihəsi;
27. 26 aprel 2022-ci il, ARMB, Banklarda kredit riskləri qaydası;
28. 28 aprel 2022-ci il, ARMB, Bank sirri ilə bağlı təkliflər haqqında;
29. 29 aprel 2022-ci il, banklara, Maliyyə və Qeyri Maliyyə xidmət bölgüsü;
30. 29 aprel 2022-ci il, banklara, ABA və AMB görüş;
31. 05 may 2022-ci il, ARMB, Mühasibat uçotu qaydalarına dair rəy və təkliflər;
32. 06 may 2022-ci il, banklara, Ödəniş Qanun layihəsi;
33. 10 may 2022-ci il, banklara, VM dəyişikliklər layihəsinin müzakirəsi;
34. 12 may 2022-ci il, banklara, MM və İpoteka haqqında Qanunun əlaqəli şərh edilməsi haqqında huquqi rəyin verilməsi;
35. 17 may 2022-ci il, ARMB, "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Azərbaycan Respublikasının Qanun layihəsinə dair təkliflər;
36. 24 may 2022-ci il, banklara, Elektron bankçılıq xidmətləri üzrə minimal xidmət zənbili;

37. 09 iyun 2022-ci il, banklara, Diaqnostika Matrisası;
38. 23 iyun 2022-ci il, banklara, Sanksiyalar sərəncamlar DVX-ABA İşçi Qrupu;
39. 23 iyun 2022-ci il, banklara, Elektrik və hibrid avtomobillərin maliyyələşməsindəki güzəştlər haqqında;
40. 24 iyun 2022-ci il, banklara, Risk peşəkarları arasında müsabiqə - ABA və AFBİA;
41. 04 iyul 2022-ci il, banklara, Elektron bankçılıq üzrə xidmətlər zənbili;
42. 05 iyul 2022-ci il, banklara, Qarabağ ipoteka proqramı;
43. 08 iyul 2022-ci il, banklara, Mastercarda münasibətdə ikiqat vergitutma;
44. 14 iyul 2022-ci il, banklara, Aktivlərin təsnifləşdirilməsi yeni qaydalarının layihəsi - görüş;
45. 20 iyul 2022-ci il, banklara, Likvidliyin Örtülmə Əmsalı (LCR);
46. 20 iyul 2022-ci il, banklara, Kapital Adekvatlığı;
47. 28 iyul 2022-ci il, SİF, bankların rəy və təklifləri;
48. 01 avqust 2022-ci il, banklara, "Banklarda likvidlik riskinin idarə edilməsi Qaydası"nın yeni layihəsi;
49. 01 avqust 2022-ci il, banklara, Daşınar əmlak əsasında maliyyələşmə ilə bağlı hüquqi aspektlər barədə sorğu;
50. 02 avqust 2022-ci il, banklara, Fırıldaqçılıq halları barədə məlumatlandırma;
51. 02 avqust 2022-ci il, banklara, Elektron ticarət zamanı ödənişlər ABA-DVX görüş;
52. 05 avqust 2022-ci il, banklara, Fraud tövsiyə mətni;
53. 08 avqust 2022-ci il, banklara, MM -Kollektiv Saziş;
54. 09 avqust 2022-ci il, banklara, POS terminalların aktivliyi;
55. 09 avqust 2022-ci il, QDF, Qarabağ İpoteka proqramı;
56. 15 avqust 2022-ci il, banklara, Layihələrin maliyyələşdirilməsi qaydası;
57. 19 avqust 2022-ci il, banklara, Fərdi məlumatlar haqqında Qanun layihəsinə təkliflər;
58. 23 avqust 2022-ci il, AR İN, ARMB, Nağdsız hesablaşmalar haqqında qanuna dair;
59. 25 avqust 2022-ci il, banklara, ABA-SİF görüş;
60. 30 avqust 2022-ci il, ARMB, "Card-to card" əməliyyatları üzrə praktiki tövsiyələr;
61. 6 sentyabr 2022-ci il, banklara, Fermerlərin maliyyə vəsaitlərinə çıxışının yaxşılaşdırılması ilə bağlı təkliflər;
62. 7 sentyabr 2022-ci il, banklara, Birinci Qarabağ müharibəsi Şəhidlərinin ailə üzvlərinə tətbiq edilən güzəştlər;
63. 7 sentyabr 2022-ci il, ARMB, BKM Kollektiv Sazişə dair;
64. 9 sentyabr 2022-ci il, ARMB, Rəqəmsallaşma və kibertəhlükəsizlik üzrə təkliflər;
65. 12 sentyabr 2022-ci il, TBB, Ekspert Qruplarının Türkiyə səfəri;
66. 23 sentyabr 2022-ci il, ARMB, Milli Ödəniş Şurası;
67. 27 sentyabr 2022-ci il, banklara, Gəlirdən çıxılması zəruri hesab edilən xərclər;
68. 12 oktyabr 2022-ci il, RH üzvünə, ABA və VK arasında Memorandumun imzalanaması haqqında;
69. 21 oktyabr 2022-ci il, ARMB, AR RİNN, Fırıldaqçılıq halları informasiya resursları;
70. 25 oktyabr 2022-ci il, banklara, ABA-SİF görüş - Dövriyyənin maliyyələşdirilməsi;
71. 2 noyabr 2022-ci il, AR MM, Kreditə əlçatanlığınınartırılması məqsədi ilə bankların məlumat bazalarına çıxışı;
72. 11 noyabr 2022-ci il, ARMB, Ödəniş kartlarının emissiyası və istifadə Qaydaları təkliflər;
73. 23 noyabr 2022-ci il, ARMB, Türkiyə səfəri Arayış Mərkəzi Bank;

74. 2 dekabr 2022-ci il, ARMB, Xərclərin optimallaşdırılması;
75. 5 dekabr 2022-ci il, banklara, Arxiv işinin təşkili;
76. 5 dekabr 2022-ci il, banklara, Etibarnamə və ərizələr ilə bağlı təkliflərin verilməsi haqqında;
77. 5 dekabr 2022-ci il, AzFina, MCC kodların düzgün təyini;
78. 9 dekabr 2022-ci il, banklara, Özünüqiymətləndirmə anketi ilə bağlı təklif və iradların verilməsi;
79. 13 dekabr 2022-ci il, banklara, "BMatch" platformasında bağlanılmasına dair KOLLEKTİV SAZİŞ;
80. 16 dekabr 2022-ci il, ARMB, Fiziki şəxslərin əmanətlərinə vergi güzəştləri.

## 2. TƏDBİRLƏR VƏ GÖRÜŞLƏR (sayı - 79)

### 1. Ümumi Yığıncaqlar – (sayı – 1)

Azərbaycan Banklar Assosiasiyasının (ABA) Ümumi Yığıncağı 23 fevral 2022-ci il tarixində "Zoom" platforması üzərindən onlayn qaydada keçirilmişdir.

### 2. Rəyasət Heyətinin iclasları – (sayı – 6)

1. 19 yanvar 2022-ci il tarixində ABA Rəyasət Heyətinin geniş tərkibdə iclası keçirilmişdir. İclas zamanı "McKinsey & Company" (Azərbaycan)" tərəfindən hazırlanması nəzərdə tutulan "Azərbaycanda sosial-iqtisadi inkişafın maliyyələşdirilməsi" adlı araşdırma ilə əlaqədar məsələlərin və "Özünüməşğulluq Proqramı"nın icrası ilə əlaqədar cari vəziyyət müzakirə olunmuşdur;
2. 29 aprel 2022-ci ildə ABA Rəyasət Heyətinin iclası baş tutmuşdur. İclas zamanı Biləsuvar Bağça-Məktəb-Lisey Kompleksinin akt zalının qurulması ilə əlaqədar məsələlər müzakirə olunmuşdur;
3. 6 may 2022-ci il tarixində ABA Rəyasət Heyətinin "Zoom" platforması üzərindən onlayn iclası keçirilmişdir. İclas zamanı bank sektorunun cari vəziyyəti ilə bağlı müzakirə edilmişdir;
4. 1 iyul 2022-ci il tarixində ABA Rəyasət Heyətinin "ABB" ASC-nin Baş ofisində iclası keçirilmişdir. İclasda McKinsey tərəfindən hazırlanmış "Sosial-İqtisadi İnkişafın Maliyyələşdirilməsi: Bank sektoru" layihəsi, ABA-nın törəmə qurumları ilə əlaqədar təşkilatı və digər cari məsələlərin müzakirəsi edilmişdir;
5. 16 sentyabr 2022-ci il tarixində ABA Rəyasət Heyətinin geniş tərkibdə "Zoom" platforması üzərindən onlayn iclası baş tutub. İclas zamanı cari ilin sentyabr ayında düşmən təxribatı nəticəsində döyüşlərdə Şəhid olmuş hərbiçilərin banklara olan bütün növ kredit öhdəliklərinin silinməsi ilə bağlı tədbirlərin görülməsi və Pakistan İslam Respublikasında baş vermiş güclü daşqınlar nəticəsində baş vermiş tələfatın aradan qaldırılması ilə bağlı yardımın edilməsi haqqında müzakirə aparılmışdır;
6. 28 noyabr 2022-ci il tarixində ABA Rəyasət Heyətinin "Zoom" platforması üzərindən onlayn iclası keçirilmişdir. İclas zamanı fiziki şəxslərin banklarda olan əmanətlərinə

hesablanan faizlərin vergiyə cəlb edilməsi ilə bağlı və banklarda olan əmanətlərin sığortalanması ilə bağlı məsələlər müzakirə olunmuşdur.

**3.<u>Forumlar – (sayı - 2) (3000-ə yaxın iştirakçı)</u>**

1. 16-17 iyun 2022-ci il tarixlərində **FİNTEX SAMMİT 2022** (MALİYYƏ VƏ TEXNOLOGİYALAR EXPO)tədbiri baş tutub. Tədbir "Visa" beynəlxalq kart təşkilatı ilə tərəfdaşlıq çərçivəsində Azərbaycan Respublikasının Mərkəzi Bankının dəstəyi ilə "Bank və maliyyə ekosistemində yeni trendlər: innovativ həllər, fintex və təhlükəsizlik" mövzusunda baş tutub;
2. 24-25 noyabr 2022-ci il tarixlərində Azərbaycan Banklar Assosiasiyasının təşkilatçılığı, Azərbaycan Respublikasının Mərkəzi Bankının dəstəyi ilə ənənəvi **VI Beynəlxalq Bankçılıq Forumu keçirilmişdir. "ETİBARLI, TƏHLÜKƏ**SİZ VƏ DAYANIQLI BANKÇILIQDIR" adı altında təşkil edilmişdir. İki gün davam edən forumda aidiyyəti dövlət qurumları, kommersiya bankları, yerli və xarici biznes və ictimai təşkilatların rəhbərləri, beynəlxalq maliyyə institutları, həmçinin Avropa, və MDB ölkələrindən 100-dək beynəlxalq təşkilatların və nüfuzlu şirkətlərin nümayəndələri iştirak edib.

**4.<u>Seminarlar, konfranslar, təlimlər və təqdimatlar – (sayı – 26) (1000-ə yaxın iştirakçı)</u>**

1. 18 fevral 2022-ci il tarixində ABA və "German Sparkassenstiftung"ün birgə təşkilatçılığı ilə "Climate change & Climate risk management" mövzusunda "workshop" keçirilmişdir. "Fairmont Hotel"də baş tutmuş tədbir "Climate Risk Services" şirkəti tərəfindən keçirilmişdir;
2. 24 fevral 2022-ci il tarixində ABA-nın dəstəyi ilə "DDTECH" şirkəti tərəfindən "Bank işlərində rəqəmsal transformasiya" mövzusunda vebinar keçirilmişdir. Vebinarda şirkətin baş direktorları Onur Turan, Onur Kartal və məhsul üzrə direktor Miray Ece Karacık sözügedən mövzuda təqdimatla çıxış etmişdir;
3. ABA, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası və Mediasiya Şurasının dəstəyi, "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin təşəbbüsü və təşkilatçılığı ilə mediatorlar üçün təlim təşkil olunub. Mövzu "Bankla müştəri arasında yaranan kommersiya mübahisələrinin əsasları" olub. Təlimdə 27 mediator iştirak edib. Təqdimatlarda müştərilərlə bağlanmış müqavilələrdən irəli gələn mübahisələrə diqqət yönəlib. Hesablaşmalar, kart əməliyyatları, İnternet Bankdan istifadə və s. xidmətlərlə bağlı yarana biləcək mübahisələrin spesifikliyi nəzərdən keçirilib. Müxtəlif məqamlara aydınlıq gətirilib. İştirakçıların sualları cavablandırılıb;
4. ABA-nın dəstəyi ilə "Fineksus-Ritmus" şirkəti tərəfindən 4 mart 2022-ci il tarixində "SWIFT Service Bureau Services" mövzusunda virtual dəyirmi masa keçirilmişdir. Qeyd edilən mövzuda şirkətin icra və dəstək direktoru Murat Kurtulmuş və həllər üzrə məsləhətçi Özgün Kars təqdimatla çıxış etmişdir;
5. ABA-nın dəstəyi ilə "Fineksus-Ritmus" şirkəti tərəfindən 12 aprel 2022-ci il tarixində "**ISO** 20022 Roadmap Seminar" keçirilmişdir. Qeyd edilən mövzuda şirkətin layihələr və həllər üzrə məsləhətçisi Özgün Kars, icra və dəstək direktoru Murat Kurtulmuş çıxış etmişdir;
6. ABA-nın dəstəyi ilə "SimonKucher & Partners" şirkəti tərəfindən 26 aprel 2022-ci il tarixində "Ödəniş sistemləri" mövzusunda vebinar keçirilmişdir. Vebinarda açıq bankçılıq

və API-lər, monetizasiya strategiyaları və imkanları, Türkiyədə ödəniş sahəsində Fintexlərin inkişafı mövzuları müzakirə edilmişdir. Qeyd edilən mövzuda şirkətin tərəfdaşı, qlobal kreditləşmənin rəhbəri Benjamin Velstin təqdimatla çıxış etmişdir;

7. 19 may 2022-ci il tarixində ABA üzvləri üçün bu sistemə daha rahat və vaxtında keçidin təmin edilməsi, keçid zamanı əməkdaşları maraqlandıran sualların operativ şəkildə cavablandırılması məqsədi ilə Dövlət Məşğulluq Agentliyinin (DMA) bu sahəyə məsul şəxsləri ilə üzv bankların HR rəhbərlərinin onlayn formatda görüşü keçirilmişdir. Görüş zamanı DMA nümayəndələri tərəfindən sistem haqqında ətraflı məlumat verilmiş, sistemdə işləmə qaydaları, sistemin verdiyi üstünlüklər barədə təqdimatla çıxış etmişdirlər;
8. Azərbaycan Respublikasının Mərkəzi Bankının İdarə Heyətinin 04 fevral 2022-ci il tarixli, 04/2 nömrəli qərarı ilə yeni "Bank hesablarının açılması, aparılması və bağlanması Qaydası" təsdiq edilmişdir. Qaydaların qəbul olunması ilə məsafədən bank hesablarının açılması proseduru daha da təkmilləşdirilmişdir. Qaydaların məsafədən bank hesablarının açılması ilə bağlı tələblərinin tətbiqi üzrə hüquqi məsələlərin açıqlanması, praktik nümunələrin müzakirə edilməsi və bu prosedurun bank sistemində daha effektiv formada tətbiq edilməsi məqsədi ilə 20 may 2022-ci il tarixində Mərkəzi Bank əməkdaşları tərəfindən Azərbaycan Banklar Assosiasiyasının təşkilatçılığı ilə bank nümayəndələri üçün birgə onlayn görüş keçirilmişdir. Görüşdə Mərkəzi Bank əməkdaşı Xəyaləddin Tağıyev tərəfindən təqdimat edilmiş, iştirakçıların sualları cavablandırılmışdır;
9. 23-27 may 2022-ci il tarixlərində Azərbaycan Banklar Assosiasiyasının (ABA) nəzdində fəaliyyət göstərən "Daxili audit üzrə Ekspert Qrupu" üzvlərinin Türkiyə Respublikasına təcrübə mübadiləsi məqsədi ilə səfəri olmuşdur. Səfər zamanı Türkiyənin 5 qabaqcıl bankında – YapıKrediBank, İş Bankası, DenizBank, Garanti BBVA və ZiraatBank görüşlər keçirilmişdir;
10. Nyu-York, İstanbul, Bakı və Tbilisidə fəaliyyət göstərən araşdırma, planlaşdırma və məsləhət xidmətləri təklif edən beynəlxalq "KUTVAN Group" şirkəti tərəfindən 10 iyun 2022-ci il tarixində"Bankların xidmət keyfiyyətinin və müştəri məmnuniyyətinin "servqual" təhlil ilə ölçülməsi" adlı vebinar keçirilmişdir. Vebinarda şirkətin prezidenti Ali Kutvan sözügedən mövzu haqqında təqdimatla çıxış etmiş və təcrübələrini paylaşmışdır;
11. 14 iyun 2022-ci il tarixində "Qlik Sense" şirkəti tərəfindən "Kredit işi üzrə Ekspert Qrupu"nun üzvlərinə və bankların məlumatların təhlili sahəsində çalışan nümayəndələrinə "Data Analitika Platforması" haqqında məlumat verilmiş və bu istiqamətdə suallar cavablandırılmışdır. Təqdimat zamanı məlumatların toplanması, işlənməsi, analizi və təhlil nəticələrinin biznesə tətbiq edilməsi kimi məsələlərə toxunulmuşdur;
12. 14 iyun 2022-ci il tarixində komplayns, bazar təhlili və biznes araşdırmaları üzrə ixtisaslaşan "YouControl" şirkəti ilə birgə "Sanction risk management through the automation of inspections: Ukrainian experience" mövzusunda vebinar keçirilmişdir. Vebinarda əsasən "Banklar və maliyyə institutları üçün KYC/AML-in avtomatlaşdırılması: nə axtarmaq lazımdır?" və "KYC/AML üçün açıq məlumatların istifadəsi" kimi məsələlərə toxunulmuşdur. "YouControl" şirkətinin Təlim və İnkişaf şöbəsinin rəhbəri Mixaylo Koltsov qeyd edilən mövzularda təqdimatla çıxış etmişdir;
13. 17 iyun 2022-ci il tarixində müştəri xidmətləri və çağrı mərkəzi texnologiyaları üzrə ixtisaslaşmış Genesys şirkəti ilə birgə təşkil edilən "Çağrı mərkəzləri üçün Genesys həlləri – müştəri xidmətində mükəmməllik" mövzusunda biznes səhər yeməyi şəklində görüş keçirilmişdir. Görüş zamanı 17 ölkədə yüzlərlə şirkətə biznes ehtiyaclarına uyğun ən optimal çağrı mərkəzi və bək ofis həllərini formalaşdırmağa dəstək vermiş və müştəri

xidmətləri üzrə 8 illik peşəkar fəaliyyətlə məşğul olmuş, Genesys şirkətinin həllər üzrə baş məsləhətçisi Alexander Kamitov qeyd edilən mövzuda təqdimatla çıxış edib;

14. ABA, Azərbaycan Respublikasının Mərkəzi Bankı və Beynəlxalq Maliyyə Korporasiyası (IFC) birgə təşkilatçılığı ilə 5 iyul 2022-ci il tarixində "Daşınar əmlakın yüklülüyünə əsaslanan maliyyyə məhsulları və platforma" mövzusunda onlayn tədbir keçirilib. Tədbir zamanı Beynəlxalq Maliyyə Korporasiyasının ekspertləri Murat Sultanov və Fevzi Tayfun sözügedən mövzuda təqdimatla çıxış etmişdir;
15. 27 iyul 2022-ci il tarixində, ABA və "Qlik Sense" şirkətinin birgə təşkilatçılığı ilə "Qlik ilə bank analitikası: hallar, memarlıq və məlumat strategiyası" mövzusunda vebinar keçirilmişdir. Vebinarda əsasən MDB banklarının praktiki "BI" keysləri (idarəetmə üçün analitika, pərakəndə biznes, risklər, rəqəmsal marketinq və tənzimləyicilər), analitik həll arxitekturasının qurulması, eləcə də bank daxilində "data-driven" strategiyanın qurulması məsələlərinə toxunulmuşdur;
16. 1 sentyabr 2022-ci il tarixində ABA və Beynəlxalq Maliyyə Korporasiyasının (IFC) "Daşınar əmlakın yüklülüyünə əsaslanan maliyyələşmə" layihəsinin komandası tərəfindən ABA-ya üzv bankların nümayəndələri üçün onlayn formatda vebinar təşkil edilmişdir. Vebinarın məqsədi hər iki qurum arasındakı əməkdaşlıq çərçivəsində daşınar əmlakın yüklü edilməsi, yüklülüyün açıqlanması, üstünlüyün müəyyən edilməsi, həmin əmlaka tutma yönəldilməsi ilə bağlı mövcud təcrübənin və hüquqi aspektlərin aydınlaşdırılması məqsədi ilə ABA üzvləri arasında keçirilmiş sorğunun nəticələrinin müzakirə edilməsi olmuşdur. Görüş zamanı sorğunun nəticələri təhlil edilmiş, konkret hallar üzrə fikir mübadiləsi aparılmış, tərəfləri maraqlandıran suallara cavab verilmişdir;
17. 1 sentyabr 2022- ci il tarixində "NF Innova" şirkətinin təşkilati dəstəyi ilə "Azərbaycanda bankçılığın gələcəyi" adlı vebinar keçirilmişdir. Vebinarda şirkətin baş icraçı direktoru Qreqor Bierent və "Raiffeisen Bank Serbia"nın rəqəmsal məhsul üzrə rəhbəri Aleksandar Smiljkoviç təqdimatla çıxış etmiş və əlaqədar təcrübələrini paylaşmışdır;
18. Azərbaycan Banklar Assosiasiyası tərəfindən 20 sentyabr 2022-ci il tarixində "Ağıllı qiymət strategiyaları" mövzusunda vebinar keçirilmişdir. Qeyd edilən mövzuda "Simon-Kucher & Partners" şirkətinin qlobal kreditləşmə üzrə rəhbəri Dr.Benjamin Velstayn təqdimatla çıxış edib. Sonda mövzu üzrə müzakirələr aparılmış və iştirakçıların sualları cavablandırılmışdır;
19. ABA-nın təşkilatçılığı və "Visa inc." beynəlxalq ödəniş sisteminin dəstəyi ilə 28 sentyabr 2022-ci il tarixində **"**Token əməliyyatlarında fraud menecmenti üzrə ən yaxşı təcrübələr" mövzusunda vebinar keçirilmişdir. Qeyd edilən mövzuda "Apple" şirkətinin mühəndislik proqramı üzrə meneceri Paul Samuels, "Visa CEMEA"nın risk üzrə meneceri Anastasiya Batlukova, risk və data məhsulları üzrə baş meneceri Vitali Paşkov, texniki həllər üzrə məsləhətçisi İqor Filatov təqdimatla çıxış edib;
20. ABA-nın təşkilatçılığı ilə "Ödəniş sistemləri və rəqəmsal bankçılıq üzrə Ekspert Qrupu"nun təmsil olunduğu geniş tərkibdə nümayəndə heyətinin Türkiyə Respublikasına təcrübə mübadiləsi üzrə rəsmi səfəri baş tutub. 3 günlük (26-28 oktyabr) müddəti əhatə edən səfər zamanı qardaş Türkiyə Respublikasının bank sisteminin rəqəmsal transformasiyası üzrə əldə edilən nailiyyətlərinin öyrənilməsi, qarşılıqlı əməkdaşlıq istiqamətləri müzakirə edilmişdir. Səfər çərçivəsində Türkiyə Respublikasının Banklararası Kart Mərkəzi, "İng Bank", "Vakıfbank", "Ziraat Bank", "Yapı Kredi Bank", "Aktif Bank", "Türkiye İş Bankası" kimi iri maliyyə institutları ilə yanaşı, "Visa Inc." beynəlxalq ödəniş sisteminin Türkiyə Respublikası üzrə nümayəndəliyi, Birleşik Ödeme Hizmetləri, "Paycell", Token, Payten, Provision kimi fintex şirkətləri ilə görüşlər keçirilərək təcrübə mübadiləsi aparılmışdır;

21. 14 noyabr 2022-ci ildə Azərbaycan Bank Tədris Mərkəzinin təşkilatçılığı, ABA və Türkiyə Banklar Birliyinin dəstəyi ilə bankların kreditləşmə üzrə rəhbər şəxslərinin, o cümlədən ABA-nın “Kredit işi Ekspert Qrupu” üzvlərinin, həm təlim, həm də Türkiyənin aparıcı bankları ilə təcrübə mübadiləsi məqsədi ilə İstanbula səfəri başlamışdır;
22. 22 noyabr 2022-ci ildə ABA və Beynəlxalq Maliyyə Korporasiyası banklar üçün “Dayanıqlı Maliyyə İmkanlarının Maksimallaşdırılması” mövzusunda hibrid seminar keçirmişlər. Seminarın proqramına qlobal iqlim dəyişikliyinin azaldılması və adaptasiya tədbirlərini dəstəkləmək üçün maliyyə sektorunun iştirak edəcəyi potenisal iqlim layihələrinin təhlili daxil olmuş, habelə sektorun dayanıqlı maliyyə imkanlarının geniş müzakirəsi aparılmışdır;
23. ABA və “LexisNexis Risk Solutions” şirkətinin birgə təşkilatçılığı ilə 23 noyabr 2022-ci il tarixində “Komplayns və risk üzrə dəyirmi masa” adı altında tədbir keçirilib. Tədbirdə “LexisNexis Risk Solutions” şirkətinin biznesin inkişafı üzrə regional meneceri xanım Marta Nişta əlaqədar təcrübələrini paylaşmışdır. Görüş zamanı “KYC” proseslərinin təşkili, fırıldaqçılıq halları ilə bağlı maliyyə itkilərini azaltmağın təsirli yolları, fırıldaqçılarla mübarizədə qlobal məlumatların rolu, müxbir əlaqələrinin qurulması kimi mövzulara toxunulmuşdur;
24. 14-23 Noyabr 2022-ci il tarixlərində ABA nəzdində fəaliyyət göstərən “Daxili audit üzrə Ekspert Qrupu”nun üzvü olan bank nümayəndələrinin Türkiyənin “Ziraat Bankası”-nda təcrübə mübadiləsi məqsədi ilə səfəri olmuşdur. Səfər zamanı bankın Daxili audit, Risklərin idarəedilməsi, Komplayens və Daxili nəzarət departamentləri ilə görüşlər keçirilmiş və geniş tərkibdə detallı iş mexanizmləri müzakirə olunmuşdur. Müzakirələrdə strukturların iş prinsipi, funksional bölgü, cari təcrübələr, gələcək planlar və inkişaf etdirilməsi nəzərdə tutulan məsələlər, o cümlədən qabaqcıl təcrübə və yeni həllər üzərindən fikir mübadiləsi aparılmışdır;
25. ABA-nın təşkilatçılığı ilə 15 dekabr 2022-ci il tarixində bank nümayəndələri üçün “Mərkəzləşdirilmiş Fraud və AML xidmətləri” mövzusunda seminar keçirilib. Qeyd edilən mövzuda SAS şirkətinin nümayəndələri təqdimatla çıxış etmişdir. Sonda mövzu üzrə suallar cavablandırılmış və müzakirələr aparılmışdır;
26. 16 dekabr 2022-ci il tarixində Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti tərəfindən ölkəmizdə faəliyyət göstərən bankların sahə üzrə məsul şəxsləri üçün “Kibergigiyena layihəsinin effektivliyi və layihədə iştirak imkanları” mövzusunda vebinar keçirilib.

**5.<u>Dövlət qurumları ilə görüşlər – (sayı – 21)</u>**

1. 18 yanvar 2022-ci il tarixində Azərbaycan Banklar Assosiasiyası və Aqrar Sığorta Fondunun (ASF) birgə təşkilatçılığı ilə «Azərbaycanda aqrar sığorta məhsulları: aqrar sahədə risklərin sığortalanması və fermerlərin maliyyə əlçatanlığına aqrar sığortanın dəstəyi» adlı görüş keçirilmişdir. Görüşdə ilkin ASF tərəfindən mövcüd mexanizm barədə təqdimat oldu. Təqdimatdan sonra sığorta mexanizminin inkişaf etdirilməsi istiqamətində müzakirələr aparıldı, bankların təklifləri dinlənildi;
2. 21 yanvar 2022-ci il tarixində “Xüsusi ehtiyat fondlarının yaradılmasına aid edilən məbləğlərin vergitutma məqsədləri üçün gəlirdən çıxılması Qaydası”nın tətbiqi ilə əlaqədar məsələlərin müzakirəsi məqsədi ilə ABA-nın “Risklərin İdarə Edilməsi üzrə” Ekspert Qrupu və Dövlət Vergi Xidməti rəhbərliyi arasında onlayn görüş keçirildi;

3. Kənd təsərrüfatı istehsalçılarının maliyyə vəsaitlərinə çıxışını asanlaşdıran çevik alətə çevrilməsini nəzərə alaraq, 15 Fevral 2022-ci il tarixində Azərbaycan Respublikasının Mərkəzi Bankında TARSİM rəhbərliyinin Azərbaycan Banklar Assosiasiyası, Azərbaycan Sığortaçılar Assosiasiyası və Mikromaliyyələşdirmə Assosiasiyasının üzvləri ilə görüş keçirilmişdir;
4. 21 fevral 2022-ci il tarixində ABA-nın "Xəzinədarlıq və Fondların İdarə Olunması üzrə" Ekspert Qrupu ilə Azərbaycan Fond Bazarı İştirakçılarının Assosiasiyasının rəhbərliyi arasında onlayn iclas keçirilmişdir. İclasda "Korporativ istiqrazlara banklar tərəfindən investisiyaların artırılması məqsədilə emitent şirkətlərə minimal tələblər; Korporativ REPO əməliyyatlarında təminat əmsallarının (Haircut) optimal faizləri; Korporativ istiqrazlara banklar tərəfindən investisiyalar zamanı xəzinədarlıq departamentinin qarşılaşdığı çətinliklər və suallar" müzakirə edilmişdir;
5. 24 fevral 2022-ci il tarixində, cari vəziyyətlə əlaqədar olaraq Azərbaycan Respublikasının Mərkəzi Bankının nümayəndələrinin iştirakı ilə "Xəzinədarlıq və Fondların İdarə Olunması üzrə" Ekspert Qrupunun "Zoom" platforması üzərindən növbəti onlayn iclası keçirilmişdir;
6. 2 mart 2022-ci il tarixində ABA ilə ƏN-nin İnformasiya-kommunikasiya texnologiyaları idarəsinin müvafiq nümayəndələri arasında onlayn görüş keçirilmişdir. Görüşdə müvafiq informasiya sistemlərinin qarşılıqlı inteqrasiyasının və aralarında elektron məlumat mübadiləsinin təşkili üzrə hüquqi və texniki məsələlər müzakirə edilmişdir;
7. 31 mart 2022-ci il tarixində ABA və Sahibkarlığın İnkişafı Fondu (SİF) arasında onlayn görüş keçirilmişdir. SİF fəaliyyətinin təkmilləşdirilməsinə dəstək olmaq məqsədi ilə ABA tərəfindən məktub əsasında banklardan toplanılan və SİF-ə göndərilən rəy və təkliflər müzakirə edilmişdir;
8. "E-KYC sistemi"nin müzakirəsi məqsədi ilə Azərbaycan Respublikası Mərkəzi Bankının nümayəndələri ilə birgə 1 aprel 2022-ci il tarixində onlayn görüş keçirilmişdir;
9. Azərbaycan Respublikasının Vergi Məcəlləsinə ABA üzvlərinin rəy və təkliflərinin müzakirəsi məqsədilə 5 may 2022-ci il tarixində ABA-nın Rəyasət Heyəti üzvləri ilə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəhbər nümayəndələri arasında görüş keçirilmişdir;
10. Kiçik və Orta Biznesin İnkişafı Agentliyi tərəfindən 29 aprel 2022-ci il tarixində Göyçay rayonunda "Kənd təsərrüfatı məhsullarının istehsalı və mövcud dövlət dəstək mexanizmləri" mövzusunda sahibkarlarla görüş keçirilmişdir. KOBİA tərəfindən ABA və üzv bankların nümayəndələri müvafiq görüşlərə dəvət edilərək sahibkarların maliyyə ehtiyaclarının və qarşılaşdıqları problemlərin öyrənilməsi, eləcə də onların bank məhsulları haqqında məlumatlandırılması şəraiti yaradılmışdır. Görüşdə müxtəlif dövlət qurumlarının (Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi, AKİA, SİF və s.) da iştirakı olmuşdur;
11. Azərbaycan Banklar Assosiasiyasının üzvləri ilə Azərbaycan Respublikasının Mərkəzi Bankının rəhbərliyi arasında 4 may 2022-ci il tarixində Mərkəzi Bankda görüş keçirilmişdir. Görüş zamanı bank sektorunun cari vəziyyəti ilə bağlı müzakirələr aparılmışdır;
12. 20 iyun 2022-ci il tarixində "Bank hesablarının açılması, aparılması və bağlanması Qaydası"nın müzakirəsi məqsədilə Dövlət Vergi Xidməti rəhbərliyi ilə banklar arasında görüş keçirilmişdir. Görüş Dövlət Vergi Xidmətinin əsas binasında baş tutmuşdur;
13. Azərbaycan Respublikasının Mərkəzi Bankı  tərəfindən milli (yerli) reytinq agentliyinin yaradılması imkanları nəzərdən keçirilməkdədir. Yerli kredit reytinq agentliyinin yaradılması üzrə mümkün variantların müzakirəsi və bankların mövqeyinin öyrənilməsi məqsədilə 14 iyul 2022-ci il tarixində AMB-nin inzibati binasında görüş keçirilmişdir;

14. Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən "Aktivlərin təsnifləşdirilməsi və mümkün zərərlərin ödənilməsi üçün xüsusi ehtiyatların yaradılması" Qaydalarının yeni layihəsi hazırlanmış, rəy və təkliflərin verilməsi üçün ABA göndərilmişdir. ABA tərəfindən bankların bu istiqamətdə rəy və təklifləri toplanılmış, ABA-nın nəzdində fəaliyyət göstərən "Risklərin idarə edilməsi üzrə Ekspert Qrupu"nda müzakirə edilərək sistemləşdirilmiş və requlyatora təqdim edilmişdir. Sözügedən rəy və təkliflərin müzakirəsi məqsədilə 19 iyul 2022-ci il tarixində AMB rəhbərliyi ilə görüş keçirilmişdir;
15. 3 avqust 2022-ci il tarixində ABA və SİF rəhbər nümayəndələrinin iştirakı ilə onlayn görüş keçirilmişdir. Görüşdə "SİF xətti ilə kreditləşmə şərtləri; SİF tərəfindən keçirilən monitorinqlərin nəticəsində yaranan suallar; Yeni kredit müraciətlərində sui-istifadə halları" mövzusunda müzakirələr aparılmışdır;
16. 5 avqust 2022-ci il tarixində Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti ilə ABA birgə əməkdaşlığının davamı olaraq bank hesabları üzərindən elektron ticarət fəaliyyətəri ilə bağlı aparılan əməliyyatlara dair məlumatların DVX-yə ötürülməsi və ölkə üzrə elektron ticarət statistikasının tərtib edilməsi prosesinin birgə müzakirəsi məqsədilə DVX nümayəndələri ilə birgə onlayn görüş keçirilmişdir;
17. Real sektorun maliyyə əlçatanlığının artırılması üçün müvafiq qurumların fəaliyyətinin təkmilləşdirilməsi ilə əlaqədar məsələlərin müzakirəsi məqsədilə 30 avqust 2022-ci il tarixində ABA ilə SİF arasında "Zoom" platforması üzərindən onlayn görüş keçirilmişdir;
18. Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondunun təşəbbüsünün banklara daha ətraflı izahı və dövriyyə xərclərinin maliyyələşməsi mexanizminin müzakirəsi məqsədi ilə ABA və SİF arasında bankların əlaqədar rəhbər şəxslərinin iştirakı ilə 28 oktyabr 2022-ci il tarixində onlayn onlayn görüş keçirilmişdir;
19. 5 noyabr 2022-ci il tarixində Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən kommersiya banklarının xəzinədarlıq fəaliyyəti ilə məşğul olan departamenti rəhbərləri üçün "Mərkəzi Bankın yeni əməliyyat çərçivəsi" mövzusunda onlayn təqdimatı keçirilmişdir;
20. ABA Rəyasət Heyəti üzvlərinin müvafiq rəhbər nümayəndələri ilə Dövlət Vergi Xidmətinin (DVX) Vergi siyasəti Baş İdarəsinin rəhbər nümayəndələri arasında 29 noyabr 2022-ci il tarixində onlayn görüş keçirilmişdir. Görüş zamanı Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən, 2023-cü il fevral ayının 1-dən etibarən "kütləvi təklif edilmiş və tənzimlənən bazar"da ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə fiziki şəxslərə ödənilən divident, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirlərinin 5 (beş) il müddətində ödəmə mənbəyində vergidən azad olunması ilə bağlı ABA tərəfindən DVX-ya ünvanlanmış məktubda qaldırılan məsələlərin müzakirəsi olmuşdur;
21. Azərbaycan Respublikasının Mərkəzi Bankının müvafiq rəhbər nümayəndələri ilə bankların xəzinədarlıq fəaliyyəti ilə məşğul olan struktur bölmələrinin rəhbəri və həmin struktur bölməni kurasiya edən rəhbər şəxslərinin iştirakı ilə 2 dekabr 2022-ci il tarixində Mərkəzi Bankın inzibati binasında görüş keçirilmişdir. Görüş zamanı Mərkəzi Bankın əməliyyat çərçivəsi ilə bağlı müzakirələr aparılmışdır.

## 6. Beynəlxalq və digər təşkilatlarla görüşlər – (sayı – 14)

1. 22 fevral 2022-ci il tarixində ABA-nın prezidenti Zakir Nuriyev "The Bank of New York Mellon"un nümayəndəsi Cihat Takunyaci ilə görüşüb. Görüş zamanı müxbir münasibətlərin qurulması, gələcək əməkdaşlıq perspektivləri müzakirə olunmuşdur;

2. 23 fevral 2022-ci il tarixində Beynəlxalq Valyuta Fondunun Missiyasının nümayəndəsi Yizhi Xu ilə ABA nəzdində fəaliyyət göstərən “Risklərin İdarə Edilməsi” və “Kredit işi” Ekspert Qruplarının müəyyən üzvləri arasında onlayn görüş keçirilmişdir;
3. İslam İnkişaf Bankı (ISDB) Qrupunun özəl sektor üzrə törəmə qurumu olan Özəl Sektorun İnkişafı üzrə İslam Korporasiyası (ICD) və ABA 9 mart 2022-ci il tarixində birgə vebinar keçirib və Azərbaycanda fəaliyyət göstərən potensial banklar və qeyri-bank təşkilatları üçün konkret maliyyələşdirmə həllərinin yaradılmasına yönəldilmiş dayanıqlı alternativ maliyyələşdirmə alətləri üzrə yol xəritəsini müzakirə ediblər;
4. 26 aprel 2022-ci il tarixində ABA ilə Dünya Bankının nümayəndələri arasında Maliyyə Sektorunun Qiymətləndirilməsi Proqramı (FSAP) çərçivəsində görüş keçirilmişdir. Görüşdə ABA-nın prezidenti Zakir Nuriyev, İcraçı direktoru Yunus Abdulov, Baş iqtisadçı Əzizağa Haxverdiyev və təşkilatın “Risklərin İdarə Edilməsi üzrə” Ekspert Qrupunun üzvləri, həmçinin, Dünya Bankının müvafiq missiyasının nümayəndələri iştirak etmişdir. Görüş zamanı bankçılıq sektorunun post-pandemiya şəraitinin icmalı, sektorun inkişafı ilə əlaqədar çağırışlar, risklər və prioritetlər, rəqabətli mühiti və dövlət dəstək tədbirləri mövzuları ətrafında tərəflər arasında geniş müzakirələr aparılmışdır;
5. İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu, Azərbaycan Banklar Assosiasiyası, BMT-nin Ətraf Mühit Proqramı və Türkiyənin Yapı Kredi Bankının təşkilatçılığı ilə görüş keçirilib. Görüşdə qeyd edilən qurumların səlahiyyətli nümayəndələri ilə yanaşı, Fondla əməkdaşlıq edən müvəkkil kredit təşkilatlarının təmsilçiləri də iştirak ediblər. Görüşün keçirilməsində əsas məqsəd məsuliyyətli bank işi prinsipləri, məsuliyyətli investisiya prinsipləri və BMT-nin Davamlı İnkişaf Məqsədləri ilə bağlı fikir mübadiləsinin aparılması və bu sahədə beynəlxalq təcrübənin Azərbaycanda fəaliyyət göstərən banklarda tətbiqi imkanlarının müzakirəsi olub;
6. 26 aprel 2022-ci il tarixində Azərbaycan Banklar Assosiasiyası ilə Asiya İnkişaf Bankının nümayyəndələri arasında görüş keçirilmişdir. Görüşdə ABA-nın icraçı direktoru Yunus Abdulov, baş iqtisadçı Əzizağa Haxverdiyev və təşkilatın “Kredit işi” Ekspert Qrupunun üzvləri, həmçinin Asiya İnkişaf Bankının Bakıda səfərdə olan eksperti Piort Koryinski və digər nümayəndələr iştirak ediblər. Görüş zamanı Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən Asiya İnkişaf Bankının da dəstəyi ilə icra edilən “Qeyri bank maliyyələşməsi və alternativ maliyyə alətlərinin inkişafı” layihəsi çərçivəsində Mikromaliyyə Strategiyasının hazırlanmasına dair, ölkədə fəaliyyət göstərən MKOB-ların maliyyələşməsi üzrə cari vəziyyətin öyrənilməsi və düzgün diaqnostikanın aparılması, MKOB-ların maliyyəyə çıxışına mənfi təsir edən maneələrin qiymətləndirilməsi, maliyyə institutlarının qarşılaşdıqları risklər, dövlət dəstək mexanizmlərindən istifadə səviyyəsi və informasiya infrastukturun hazırlanması kimi məsələlər geniş müzakirə edilmişdir;
7. 29-30 may 2022-ci il tarixində, İstanbul şəhərində Türkiyə Banklar Birliyinin (TBB) təşkilatçılığı ilə Avropa Banklar Federasiyasının (ABF) illik iclası keçirilmişdir. İclasda Mərkəzi və Şərqi Avropa və digər ölkələrdən banklar assosiasiyalarının rəhbərləri iştirak etmişdir. İclasda Avropa Banklar Federasiyasının İcra Komitəsinin sədri Kristian Ossiq, Federasiyanın Baş katibi Vim Mijs və TBB-nin Baş Katibi açılış nitqi ilə çıxış etmişlər. Əsas müzakirə mövzuları Türkiyədə bank sektorunun cari vəziyyəti, Ukrayna-Rusiya müharibəsinin qonşu ölkələrin iqtisadiyyatına təsiri, ABF-in fəaliyyətləri və Avropa Birliyi səviyyəsində maliyyə-bank sektorunda ən son yeniliklər, Basel III/IV və ESG risklər, davamlı inkişafın maliyyələşdirilməsi, maliyyə savadlılığı olmuşdur. Azərbaycan Banklar Assosiasiyasının prezidenti Zakir Nuriyev və İcraçı direktoru Yunus Abdulov sözügedən

iclasda iştirak etmiş və iclas iştirakçılarına Azərbaycanda maliyyə-bank sektorunun cari vəziyyəti, pandemiya və ondan sonrakı dövrlərdə bank sektorunun fəaliyyəti, həyata keçirilmiş layihələr, görülmüş işlər barədə məlumat vermişlər;

8. 2 iyun 2022-ci il tarixində Beynəlxalq Valyuta Fondu "Article IV" missiyası çərçivəsində ABA üzv bankların nümayəndələri arasında görüş keçirilmişdir. İclasda missiyanın nümayəndə heyətinin sədri Chad Steinberg və Orta Şərq və Mərkəzi Asiya Departamentinin nümayəndələri – Jiri Jonas və Gustavo Ramirez iştirak etmişlər;
9. 24 iyun 2022-ci il tarixində ABA və Beynəlxalq Miqrasiya Təşkilatının (BMqT) nümayəndələri arasında görüş keçirilmişdir. Görüşdə ABA-nın icraçı direktoru Yunus Abdulov, "Ödəniş sistemləri və rəqəmsal bankçılıq üzrə Ekspert Qrupu"nun rəhbəri Tamerlan Rüstəmov, BMqT-nin nümayəndələri – Məhəmməd İbrahimov, beynəlxalq ekspert Anna Proxorova, milli ekspertlər İlham Qafarov və Səbinə Tağıyeva iştirak edib. Son dövrdə beynəlxalq müxbir münasibətlər məsələlərinin vacibliyinin artması fonunda fərqli regionlarda yerləşən müxtəlif banklarla əməkdaşlıq imkanlarının nəzərdən keçirilməsi daha böyük əhəmiyyət qazanmışdır. Bu istiqamətdə ABA olaraq, əməkdaşlıq imkanları araşdırılmaqda və mümkün dəstək tədbirləri görülməkdədir. Bu məqsədlə, 24 iyun 2022-ci il tarixində Argentina bankı olan "The Banco de la Provinica de Buenos Aires"in nümayəndələri ilə ABA-nın "Ticarətin və layihələrin maliyyələşdirilməsi üzrə Ekspert Qrupu"nun üzvləri arasında görüş keçirilmişdir;
10. 5 iyul 2022-ci il tarixində Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramının Maliyyə Təşəbbüsü qurumu (UNEP FI) ilə ABA arasında Sahibkarlığın İnkişafı Fondunun, Beynəlxalq Maliyyə Korporasiyasının və ölkənin kommersiya banklarının nümayəndələrinin iştirakı ilə görüş keçirilmişdir;
11. 17 oktyabr 2022-ci il tarixində İslam İnkişaf Bankının törəmə qurumu olan Ticarətin Maliyyələşdirilməsi üzrə Beynəlxalq İslam Korporasiyasının (İTFC) nümayəndə heyəti ilə ABA nümayəndələri arasında görüş keçirilib. İclasda missiyanın nümayəndə heyətinin sədri Hamady Soma Ba, Yans Baqa Adian (menecer, kredit və strukturlaşdırma departamenti), Daud Mohamed Osman (baş menecer, komplayns departamenti) və Hocamurod Hocayev (əlaqələr üzrə menecer, MDB), ABA tərəfdən isə, icraçı direktor Yunus Abdulov və ABA nəzdində fəaliyyət göstərən Ekspert Qruplarının ("Kredit işi", "Komplayns", "Ticarət və layihə maliyyələşdirilməsi", "Xəzinədarlıq və Fondların İdarəedilməsi", "Risk") sədrləri və üzvləri iştirak ediblər;
12. ABA ilə Asiya İnkişaf Bankının nümayəndələri arasında görüş keçirilmişdir. 24 oktyabr 2022-ci il tarixində baş tutmuş görüşdə Azərbaycan Banklar Assosiasiyasının (ABA) icraçı direktoru Yunus Abdulov və Asiya İnkişaf Bankının (AİB) Bakıda səfərdə olan eksperti Massimiliano Gangini iştirak etmişlər;
13. 4 noyabr 2022-ci il tarixində ABA-nın Rəyasət Heyətinin üzv banklarının rəhbər şəxsləri ilə J.P. Morgan investisiya bankının Bakıda səfərdə olan nümayəndə heyəti arasında görüş keçirilmişdir. Görüş zamanı nümayəndə heyətinə Azərbaycan bank sektoru haqqında məlumat verilmiş, ölkədə fəaliyyət göstərən banklarla J.P. Morgan arasında əməkdaşlıq imkanları müzakirə edilmişdir;
14. 14 noyabr 2022-ci il tarixində ABA ilə Dünya Bankının nümayəndələri arasında "Maliyyə xidmətləri istehlakçılarının müdafiəsi" (FSMP2) layihəsi çərçivəsində görüş keçirilmişdir. Görüşdə ABA-nın icraçı direktoru Yunus Abdulov, Bank Ombudsmanının məsul katibi Elçin Həsənov, həmçinin, Dünya Bankının müvafiq missiyasının nümayəndələri iştirak etmişdir.

## 7.<u>Sosial-mədəni və maliyyə savadlığı tədbirləri - (sayı –9) (1000-dən çox)</u>

1. 8 mart "Beynəlxalq Qadınlar Günü" münasibətilə Azərbaycan Banklar Assosiasiyasının (ABA) təşkilatçılığı ilə "Balans qadınlarla yaranır" adlı tədbir keçirilib. 2017-ci ildən etibarən keçirilən tədbir bu il də maraqlı olması ilə yadda qalıb. Tədbirdə Psixoloq Zümrüd Əsədova "İş və sosial həyat balansı: qarşılıqlı təsir" mövzusunda çıxış edərək qadınların sosial həyatı ilə iş həyatı arasında balansı necə qura biləcəkləri haqqında bəhs edib. Daha sonra "BCC Turkey" qurucusu, peşəkar kouç və psixoloq Banu Koç Çakan **"**İş'te Kadın" adlı mövzu ilə çıxışı davam etdirib. O, iş həyatında qadınların rolundan danışıb;
2. "Ümumrespublika Yaşıllaşdırma Marafonu" ("Yaşıl Marafon") çərçivəsində ölkə üzrə ağacəkmə aksiyası keçirilib. IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə keçirilən genişmiqyaslı ağacəkmə aksiyasına Azərbaycan Respublikasının Mərkəzi Bankının təşəbbüsü ilə ölkədə fəaliyyət göstərən maliyyə Assosiasiyaları – ABA, Azərbaycan Sığortaçılar Assosiasiyası, Azərbaycan Mikromaliyyə Assosiasiyası, Azərbaycan Fintex Assosiasiyası və Azərbaycan Fond Bazarı İştirakçılarının Assosiasiyasının və üzvlərinin rəhbərliyi, kollektivi qoşulub;
3. Azərbaycan Respublikasının Mərkəzi Bankı və Azərbaycan Banklar Assosiasiyasının təşkilatçılığı ilə təşkil edilən Avropa Pul Viktorinasının milli mərhələsi keçirilmişdir. Müsabiqədə 13-15 yaşlı şagirdlər iştirak etmişdirlər;
4. 11-13 may 2022-ci il tarixində ABA və Azərbaycan Şahmat Federesiyasının təşəbbüsü ilə Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş banklararası şahmat yarışı baş tutub. Yarışın nəticələrinə əsasən şəxsi komanda çempionatında "ABB" ASC qalib gəlib. 2-ci və 3-cü yerlərdə isə müvafiq olaraq "Kapital Bank" ASC və "TuranBank" ASC qərarlaşıb. Yarış Azərbaycanda şahmatın kütləviliyini artırmaq və bank sektorunda çalışanların asudə vaxtlarını səmərəli təşkil etmək məqsədi ilə keçirilir. Ümummilli lider Heydər Əliyevin anadan olmasına həsr olunmuş banklararası şahmat yarışı ABA tərəfindən 2016-cı ildən illik əsasda keçirilir;
5. 21 may 2022-ci il tarixində 1 saylı idman liseyində Azərbaycan Banklar Assosiasiyası və Azərbaycan Badminton Federasiyasının birgə təşkilatçılığı ilə ölkəmizdə fəaliyyət göstərən müxtəlif bankların əməkdaşları arasında həvəskar badminton yarışı keçirilib. 32 kişi və qadın bamdintonçu şəxsi kateqoriyada qüvvəsini sınayıb. Turnirin mükafatçıları təşkilatçılar tərəfindən diplom və medallarla təltif olunub. İlk 3 pillənin sahiblərinə hədiyyə kuponları təqdim edilib;
6. "2019-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında rəqəmsal ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram"a, həmçinin Azərbaycan Respublikası Mərkəzi Bankının "2021-2023-cü illər üçün Rəqəmsal Ödəniş Strategiyası"na uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinin təşkilatçılığı ilə 27 may tarixində "Naxçıvan" Universitetinin müəllim və tələbə kollektivi üçün maarifləndirici tədbir keçirilmişdir. Tədbirdə Azərbaycan Banklar Assosasiyasının ödəniş sistemləri və rəqəmsal bankçılıq üzrə ekspert qrupunun rəhbəri, "Bank of Baku" ASC-nin ödəniş sistemləri departamentinin direktor müavini Tamerlan Rüstəmov "Ödəniş kartları və onlarla əməliyyatlar" mövzularında məruzə ilə çıxış etmişdir;
7. Qərbi İsveçrə Tətbiqi Elmlər və İncəsənət Universitetinin tərkib hissəsi olan HES – SO Ali idarəetmə və iqtisadiyyat məktəbinin magistratura mərkəzinin direktoru Lukas Başunqun və

koordinator Virtz Yuliyanın rəhbərliyi ilə 15 isveçrəli tələbə Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) təcrübə keçib. Bu proqram çərçivəsində 29 sentyabr 2022-ci il tarixində Azərbaycan Banklar Assosiasiyasının "Hüquqi məsələlər üzrə Ekspert Qrupu"nun eksperti Əfqan Baxışovun magistr tələbələri ilə görüşü baş tutmuşdur. Görüş zamanı İsveçrə və Azərbaycanın bank sistemi, Azərbaycanın İsveçrə bazarındakı rolu, Azərbaycan-İsveçrə iqtisadi əlaqələri barədə müzakirələr aparılmışdır;

8. Azərbaycan Respublikası Mərkəzi Bankının Ödəniş sistemləri və hesablaşmalar departamentinin böyük mütəxəssisi və Azərbaycan Texniki Universitetinin dosenti Xəyaləddin Tağıyev və ABA"Ödəniş sistemləri və rəqəmsal bankçılıq üzrə Ekspert Qrupu"nun rəhbəri, "Bank of Baku" ASC-nin Ödəniş sistemləri departamentinin direktor müavini Tamerlan Rüstəmov tərəfindən "Rəqəmsal ödənişlər və elektron bankçılıq xidmətləri" adlı dərslik ingilis dilində nəşr edilmişdir. Dərsliyin ingilis dilində nəşr olunması ölkəmizdə formalaşmış rəqəmsal ödəniş ekosistemi və onun xüsusiyyətləri, həyata keçirilən islahatlar və inkişaf tarixi, tətbiq edilən innovativ ödəniş həll və texnologiyaları haqqında təhsil müəssisələri ilə yanaşı, yerli və beynəlxalq maliyyə institutları üçün etibarlı və zəruri olan məlumatın əldə edilməsinə, müvafiq biliklərə yiyələnməyə imkan verəcəkdir. Dərslik ABA, AMFA, "MasterCard Worldwide" beynəlxalq kart təşkilatı və fintex ekosistemində təmsil olunan qabaqcıl maliyyə institutlarının dəstəyi əsasında nəşr edilmişdir;
9. ABA tərəfindən keçirilən "Nə? Harada? Nə zaman?" Banklararası intellektual yarışmanın qalibləri məlum olub. 13 dekabr 2022-cu il tarixində ABA tərəfindən Banklararası "Nə? Harada? Nə zaman?" intellektual yarışması keçirilib. 12 bankdan 80-ə yaxın əməkdaşın iştirak etdiyi yarışmanın qalibi "Kapital Bank" komandası olub. Belə ki, "Kapital Bank" komandası mümkün 36 sualdan 27-nə cavab verərək I yerə, "Bank Respublika" komandası isə 25-ni cavablandıraraq II yerə layiq görülüb. "ABB" və "Azərikard" komandaları mümkün 36 sualdan 24-nə cavab verərək sonda bərabərliyə qalıb. 3 mərhələdən ibarət çempionatda III yerin müəyyənləşdirilməsi üçün komandalara əlavə suallar verilib. Və nəticədə "ABB" komandası daha çox suala cavab verərək III yerdə qərarlaşıb.

## 3. EKSPERT QRUPLARININ FƏALİYYƏTİ

| Qrupun iclasları (işçi qruplarının görüşləri daxil olmaqla) | Aidiyyəti qurumlarla və xarici ekspertlərlə görüşlər | Göndərilmiş müraciətlər və məktublar, sorğular | Keçirilmiş konfranslar və seminarlar, təqdimatlar | TV-lərdə və digər resurslarda video və yazılı müsahibələr, çıxışlar, bank sektoruna aid məqalələr | Konkret məsələlər üzrə yaradılmış işçi qruplar | Hazırlanmış tövsiyyələr və oxşar sənədlər, qrupun fəaliyyəti nəticəsində müvafiq qayda, qanun, prosedur və s. Dəyişikliklər |
|---|---|---|---|---|---|---|
| 77 | 112 | 188 | 27 | 18 | 14 | 67 |

### HÜQUQİ MƏSƏLƏLƏR ÜZRƏ EKSPERT QRUPU

**Qrupun iclasları (işçi qruplarının görüşləri daxil olmaqla) (sayı - 28 )**

1. 15 fevral 2022-ci il - İşçi qrupunun iclası, "Bank hesablarının açılması, aparılması və bağlanması Qaydaları"na müvafiq təkliflərin verilməsi, rəqəmsal imkanlardan bank xidmətlərinin göstərilməsi zamanı istifadənin hüquqi tərəfləri və digər cari məsələlərin müzakirəsi;
2. 11 yanvar, 7 fevral, 1 mart, 14 mart, 13 aprel, 21 aprel, 31 may, 30 iyun, 21 iyul 2022-ci il - Məhkəmə məsələləri İşçi Qrupunun iclası (9 iclas);
3. 14 mart, 13 may 2022-ci il – İcra məsələləri üzrə İşçi Qrupunun iclası (2 iclas);
4. 4 aprel, 21 aprel, 31 may, 27 iyul, 1 avqust, 7 dekabr 2022-ci il - Ekspertiza məsələləri İşçi Qrupunun iclası (6 iclas);
5. 2 mart 2022-ci il – Elektron Məhkəmə İşçi Qrupunun Ədliyyə Nazirliyi İKT İdarəsi ilə birlikdə iclası;
6. 1 aprel 2022-ci il, EQ-nun iclası, korporativ kartlarla əlaqədar məhdudiyyətlər ("card-to-card" tipli ödəniş əməliyyatları, nağdlaşdırma, həmçinin rəqəmsal ödənişlər) ilə bağlı "Ödəniş sistemləri və rəqamsal bankçılıq" Ekspert Qrupunun üzvləri ilə birgə müzakirəsi;
7. 28 aprel 2022- Kredit işi EQ-nun iclasında iştirak; İKFZ və AKİA-nın fəaliyyəti ilə bağlı təkliflərin müzakirəsi;
8. 24 may 2022-ci il, EQ-nin iclası; Konstitusiya Məhkəməsinə təqdim ediləcək Hüquqi rəyin müzakirəsi;
9. 9 avqust 2022-ci il, "Bank hesablarına sərəncamların göndərilməsi və maliyyə sanksiyalarının tətbiqi ilə əlaqədar İşçi Qrupu"nun iclası, Bank hesabından sərəncama əsasən vəsaitin silinməsi prosesinin təkmilləşdirilməsi ilə bağlı müzakirələr;
10. 25 avqust 2022-ci il, EQ-nun iclası, AKB ilə bağlı bəzi məsələlərin müzakirəsi;
11. 1 sentyabr 2022-ci il - Azərbaycan Banklar Assosiasiyası (ABA) və Beynəlxalq Maliyyə Korporasiyası (IFC) ilə əməkdaşlıq çərçivəsində daşınar əmlakın yüklü edilməsi, yüklülüyün

açıqlanması, üstünlüyün müəyyən edilməsi və həmin əmlaka tutma yönəldilməsi ilə bağlı mövcud təcrübənin öyrənilməsi məqsədi ilə yaradılmış İşçi qrupunun iclası;

12. 8 sentyabr 2022-ci il, EQ-nun iclası, Kredit borcu üzrə zaminin əmək haqqının 50 faizindən artıq hissənin akseptsiz qaydada silinməsinə dair bəzi məsələlərin müzakirəsi;

13. 18 sentyabr 202-ci il – Məhkəmə Ekspertizası məsələləri İşçi Qrupunun Mərkəz rəhbərliyi ilə birlikdə iclası;

14. 20 dekabr 2022-ci il – EQ-nun iclası, əqdə əsasən borclunun əmək haqqından akseptsiz qaydada tutmanın mümkün hədləri ilə bağlı qanunvericiliyin tətbiqi üzrə Ali Məhkəmənin Qərardadının icrası ilə məsələlərin müzakirəsi

**Aidiyyəti qurumlarla və xarici ekspertlərlə görüşlər (sayı – 13)**

1. 2 mart - Elektron məhkəmə informasiya sisteminə inteqrasiya məsələləri ilə bağlı ABA ilə ƏN-nin İnformasiya-kommunikasiya texnologiyaları idarəsinin müvafiq nümayəndələri arasında görüş;
2. 14 mart 2022-ci il - Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA), Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının və Mediasiya Şurasının dəstəyi, KOBİA yanında İctimai Şuranın təşkilatçılığı ilə dövlət qurumlarının və iş adamlarının iştirakı ilə təşkil edilən növbəti ictimai müzakirədə iştirak;
3. 12 aprel 2022-ci il - Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin, həmçinin Dövlət Vergi Xidmətinin və Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəhbər şəxslərinin iştirakı ilə kənd təsərrüfatı məhsullarının satışından daxil olan vəsaitlərin bank hesabından məxarici ilə bağlı müzakirələrin aparılması;
4. 27 aprel 2022-ci il, Dövlət Vergi Xidmətinin və ABA üzlərinin nümayəndələrinin iştirakı ilə Vergi Məcəlləsinin 60.3-cü bəndinin müzakirəsi ilə bağlı görüş;
5. 20 may 2022-ci il, Məsafədən hesabların açılması ilə bağlı Mərkəzi Bankın təqdimatı;
6. 29 sentyabr 2022-ci il, Azərbaycan Banklar Assosiasiyasının "Hüquqi məsələlər üzrə Ekspert Qrupu"nun eksperti Əfqan Baxışovun ADA Universitetində magistr tələbələri ilə görüşü;
7. 14-15 oktabr – EQ-nun Şuşa şəhərinə səfəri;
8. 18 oktyabr 2022-ci il, Azərbaycan Banklar Assosiasiyası (ABA) və Azərbaycan Respublikası Vəkillər Kollegiyası (Vəkillər Kollegiyası) arasında birgə qarşılıqlı əməkdaşlığa dair Memorandum imzalanma mərasimi;
9. 19 oktyabr 2022-ci il - Azərbaycan Ombudsman Aparatı və Milli İnsan Hüquqları Təsisatları İnstitutunun təşkilatçılığı ilə Bakı Beynəlxalq Konfransında iştirak;
10. 24 oktyabr 2022-ci il, ƏN "Mobil E-Qanun" tətbiqinin təqdimatı;
11. 24 oktyabr 2022-ci il, Azərbaycan Banklar Assosiasiyası (ABA) və Asiya İnkişaf Bankının (AİB) arasında görüş keçirilmişdir;
12. 21 noyabr 2022-ci il, ƏN-nin innovasiyaları sistemi ilə bağlı təqdimatın təşkili;
13. 22 dekabr 2022-ci il, Azərbaycan Banklar Assosiasiyasının (ABA) "Hüquqi məsələlər üzrə" Ekspert Qrupunun üzvləri ilə Azərbaycan Respublikası Vəkillər Kollegiyasının (Kollegiya) Biznes Hüququ Komitəsinin nümayəndələri arasında görüş.

**Göndərilmiş müraciətlər və məktublar (sayı – 42)**

1. No. 22-005, 11 yanvar 2022-ci il, MB, İmtiyazlı səhmlərlə bağlı;
2. No. 22-006, 11 yanvar 2022-ci il, MB, Elektron ticarətlə bağlı təkliflər;

3. No. 22-017, 19 yanvar 2022-ci il, MB, Müşbir hesablarla bağlı təkliflər;
4. No. 22-018, 19 yanvar 2022-ci il, İN, MMX, "Azərbaycan Respublikası Cinayət Məcəlləsi və Azərbaycan Respublikası Cinayət-Prossesual Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanun layihələrinə Azərbaycan Banklar Assosiasiyasının "Hüquqi məsələlər üzrə Ekspert Qrupu" tərəfindən verilən əlavə və təkliflər;
5. No. 22-021, 21 yanvar 2022-ci il, NK, ƏN, "Azərbaycan Respublikası İcra Məcəlləsi", habelə bundan irəli gələrək digər qanun, fərman layihələrinə Azərbaycan Banklar Assosiasiyasının "Hüquqi məsələlər üzrə Ekspert Qrupu" və üzv banklar tərəfindən verilən əlavə və dəyişikliklər;
6. No. 22-026, 26 yanvar 2022-ci il, NK, "Azərbaycan Respublikasının cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sisteminin effektivliyinin artırılmasına dair Tədbirlər Planı"na rəy və təkliflər;
7. No. 22-029, 26 yanvar 2022-ci il, banklara, "Xüsusi ehtiyat fondlarının yaradılmasına aid edilən məbləğlərin vergitutma məqsədləri üçün gəlirdən çıxılması Qaydası"nın icrası məqsədi ilə sorğu;
8. No. 22-032, 3 fevral 2022-ci il, ƏƏSMN, Dövlət Müdafiə Fondunun Xüsusi Şərtlərlə Təyinat üzrə Mərkəzi Filialından pensiya alan borcluların bank rekvizitləri "icra sənədlərinin elektron mübadiləsi sistemi"nə daxil edilmədiyindən inkasso sərəncamlarının icrası mümkün olmaması haqqında;
9. No. 22-033, 059, 3 və 16 fevral 2022-ci il, banklara, KM, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun 71, 81 və 82-ci maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair müraciətinə rəy və təkliflərin bildirilməsi;
10. No. 22-047, 14 fevral 2022-ci il, QNBİ, «Elektron notariat» informasiya sistemində müvafiq müqavilələrin əsas mətninin məzmun və mahiyyətinə uyğun formalaşdırılmasının təmin edilməsi haqqında;
11. No. 22-048, 14 fevral 2022-ci il, DVX, qeyri-sahibkarlıqla bağlı gəlirlərini nağd qaydada məxaric etdikdə bank tərəfindən 1 faiz dərəcəsi ilə sadələşdirilmiş verginin hesablanmaması haqqında;
12. No. 22-049, 14 fevral 2022-ci il, Unibank, bank hesablarına sərəncam qoyulması haqqında;
13. No. 22-057, 16 fevral 2022-ci il, MB, üçüncü şəxslərin xeyrinə əmanət qoyulması ilə əlaqədar bank təcrübəsində olan qeyri-müəyyənliklərin aradan qaldırılması ilə bağlı;
14. No. 22-092, 25 fevral 2022-ci il, banklara, ABA ilə ƏN-nin İnformasiya-kommunikasiya texnologiyaları idarəsinin müvafiq nümayəndələri arasında 2 mart 2022-ci il tarixində saat 11:00-da onlayn formada görüşün keçirilməsi;
15. No. 22-101, 2 mart 2022-ci il, İN, "Azərbaycan Respublikası Cinayət Məcəlləsi və Azərbaycan Respublikası Cinayət-Prossesual Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanun layihələrinə rəy və təkliflər;
16. No. 22-103, 9 mart 2022-ci il, ƏMDX, daşınmaz əmlaklara sərəncam verilməsi ilə bağlı əməliyyatlar aparılarkən notariat ofisləri tərəfindən elektron informasiya sistemində müvafiq qeydlərin edilməsi haqqında;
17. No. 22-147, 28 mart 2022-ci il, MŞ, ABA-nın Məşvərət Komissiyasında iştirakı ilə bağlı;
18. No. 22-176, 31 mart 2022-ci il, DVX, Xidməti müqavilələrlə bağlı;
19. No. 22-180, 1 aprel 2022-ci il, DVX, Azərbaycan Respublikasının Vergi Məcəlləsinə (VM) əlavə və dəyişikliklərlə bağlı;
20. No. 22-193, 14 aprel 2022-ci il, İN, Elektron ticarət zamanı ödənilən ödənişlər haqqında;

21. No. 22-197, 22-242, 20 aprel və 13 may 2022-ci il, banklara, AM, Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 418-1-ci maddəsində təsbit edilmiş mexanizmə əsasən, "ipotekaya xitamın verilməsi və digər" tələblər üzrə mülki işin halları ilə əlaqədar olaraq mübahisəli hüquqi məsələ ilə bağlı rəy və təkliflərin formalaşması;
22. No. 22-226, 28 aprel 2022-ci il, bank sirri təşkil edən məlumatların ötürülməsinə dair;
23. No. 22-227, 22-234, 29 aprel, 10 may 2022-ci il, banklara, MB, "Banklar haqqında" və "Qiymətli kağızlar bazarı haqqında" Qanunlar dəyişikliklər layihəsinə dair rəy və təkliflərin hazırlanması;
24. No. 22-239, 22-239, 12 və 25 may 2022-ci il, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 312.4-cü və "İpoteka haqqında" Azərbaycan Respublikası Qanununun 30.1 və 31.1-ci maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə rəy və təkliflər;
25. No. 22-244, 13 may 2022-ci il, banklara, "Banklar haqqında" Qanuna dəyişikliklər layihəsi rəy və təkliflərin verilməsi haqqında;
26. No. 22-381, 22 iyul 2022-ci il, Konstitusiya Məhkəməsinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 399.3, 421.3, 423.2, 424.3 və 447-ci maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair müraciəti ilə bağlı hüquqi rəy;
27. No. 22-388, 22-412, 1 və 19 avqust 2022-ci il, Azərbaycan Banklar Assosiasiyası (ABA) və Beynəlxalq Maliyyə Korporasiyası (IFC) ilə əməkdaşlıq çərçivəsində daşınar əmlakın yüklü edilməsi, yüklülüyün açıqlanması, üstünlüyün müəyyən edilməsi və həmin əmlaka tutma yönəldilməsi ilə bağlı mövcud təcrübənin və hüquqi aspektlərin aydınlaşdırılması məqsədi ilə sorğunun keçirilməsi;
28. No. 22-413, 19 avqust 2022-ci il, banklara, "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikası Qanunu layihəsi rəy və təkliflərin verilməsi ilə bağlı;
29. No. 22-424, 30 avqust 2022-ci il, MB, "Fiziki şəxslərin "Card-to-card" əməliyyatları üzrə bəzi risklərin idarə edilməsi üzrə praktiki tövsiyələr"ə dair sənədi haqqında;
30. No. 22-440, 13 sentyabr 2022-ci il, Ali Məhkəməsinin icraatında olan əmək haqqının 50 faizindən artıq hissəsinin akseptsiz silinməsinin dayandırılmasına dair mübahisəli hüquqi məsələ ilə bağlı;
31. No. 22-441, 13 sentyabr 2022-ci il, MB, üçüncü şəxsin xeyrinə əmanət məhsulu üzrə hesabın kimin adına açılmalı olduğu ilə bağlı təkliflər;
32. No. 22-487, 4 oktyabr 2022-ci il, Sabunçu rayon Məhkəməsinə sorğu ilə bağlı;
33. No. 22-496, 12 oktyabr 2022-ci il, banklara, Azərbaycan Banklar Assosiasiyası (ABA) və Azərbaycan Respublikası Vəkillər Kollegiyası (Kollegiya) arasında məhkəmə-hüquq sistemində birgə qarşılıqlı əməkdaşlığa dair Memorandumun imzalanması haqqında;
34. No. 22-529, 1 noyabr 2022-ci il, DVX, banklar tərəfindən keçirilən kampaniyalar və layihələr üzrə əldə edilən hədiyyələr, bonuslar, "cashback"lər və s. üzrə müştərilərin və bankların yarana biləcək vergi öhdəlikləri barədə haqqında;
35. No. 22-602, 23 noyabr 2022-ci il, DVX, "kütləvi təklif edilmiş və tənzimlənən bazar"da ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə fiziki şəxslərə ödənilən dividend, diskont və faiz gəlirlərinə verginin hesablanması haqqında;
36. No. 22-623, 5 dekabr 2022-ci il, banklara, Notariat Palatası tərəfindən etibarnamə və ərizə nümunələrinə dair təklif haqqında;
37. 29 dekabr – DVX, Özünüqiymətləndirmə anketləri ilə bağlı təklif və rəylər.

**TV-lərdə və digər resurslarda video və yazılı müsahibələr, çıxışlar, bank sektoruna aid məqalələr (sayı – 7)**

1. Q.Ağayev – Elektron hökümət haqqında – İTV.
https://www.facebook.com/321633981843193/posts/899226630750589/?d=n
2. Q.Ağayev – İTV Sabaha saxlamayaq, bank müştəri problemləri
https://www.youtube.com/watch?v=HGNYkSoOwTo&t=2s
3. Q.Ağayev – İTV Biznes Azerbaycan, Biznes kreditləri haqqında
https://www.youtube.com/watch?v=rqbAQ86CLl0
4. Q.Ağayev – İTV Sabaha saxlamayaq, mənzil kreditləri
https://www.facebook.com/watch?v=1211053229639122
5. Q.Agayev – İTV Biznes Azərbaycan – Dələduzluq halları
https://www.youtube.com/watch?v=HNa-krGSJO8&t=2s
6. Q.Ağayev – ATV  İqtisadi zona- Zaminliklə bağlı məsələlər
https://aba.az/aba-nin-eksperti-qorxmaz-agayev-iqtisadi-zona-verilisinin-qonagi-olub-video-2/
7. Q.Ağayev – Report - Ölkədən xaricə pul köçürülmələri
https://aba.az/olkə-xaricinə-pul-kocurulməsi-ilə-bagli-yeni-qayda-qara-bazara-necə-təsir-edəcək/

**Konkret məsələlər üzrə yaradılmış işçi qruplar (sayı – 3)**

1. Əmlak Məsələləri Dövlət Xidməti ilə birgə əmlakın qeydiyyatı üzrə məsələlər ilə bağlı İşçi Qrupu;
2. Daşınar Əmlakın yüklülüyü ilə bağlı məsələlər üzrə İşçi Qrupu;
3. Azərbaycan Banklar Assosiasiyasının (ABA) "Hüquqi məsələlər üzrə" Ekspert Qrupunun üzvləri ilə Azərbaycan Respublikası Vəkillər Kollegiyasının (Kollegiya) Biznes Hüququ Komitəsinin nümayəndələri arasında İşçi Qrupu.

**Hazırlanmış tövsiyələr və oxşar sənədlər, qrupun fəaliyyəti nəticəsində müvafiq qayda, qanun, prosedur və s. dəyişikliklər (sayı – 26)**

1. İcra haqqında qanuna əlavə və təkliflər;
2. İpoteka haqqında qanuna əlavə və təkliflər;
3. "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında" qanun layihəsinə əlavə və təkliflər;
4. Azərbaycan Respublikası Cinayət Məcəlləsi və Azərbaycan Respublikası Cinayət-Prossesual Məcəlləsinə rəy və təkliflər;
5. "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikasının Qanunu və Azərbaycan Respublikası Mərkəzi Bankının "Azərbaycan Respublikasının rezident və qeyri-rezidentlərinin xarici valyuta əməliyyatlarının aparılması Qaydaları"na əlavə və dəyişiklərə rəy və təkliflər;
6. "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanunun layihəsinə əlavə və təkliflər;
7. "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Qanun layihəsinə rəy və təkliflər;
8. "Notariat haqqında" Azərbaycan Respublikasının Qanun layihəsinə rəy və təkliflər;
9. Daşınar əmlakın yüklülüyü haqqında Qanunvericiliyə dəyişikliklər;

10. “Azərbaycan Respublikası İcra Məcəlləsi” layihəsi rəy və təkliflər;
11. Azərbaycan Respublikası Vergi Məcəlləsinə əlavə və dəyişikliklər;
12. Azərbaycan Respublikası Mülki Məcəlləsinə əlavəvə dəyişikliklər;
13. “Azərbaycan Respublikası Ailə Məcəlləsi” layihəsi rəy və təkliflər;
14. “Banklar haqqında” Qanununa rəy və təkliflər;
15. “Dövlət sirri” haqqında Qanununa rəy və təkliflər;
16. “Qiymətli kağızlar bazarı haqqında” Qanuna rəy və təkliflər;
17. Əmanətlərin sığortalanması haqqında” Azərbaycan Respublikası Qanununa rəy və təkliflər;
18. “Fərdi məlumatlar haqqında” Azərbaycan Respublikası Qanunu layihəsi rəy və təkliflər;
19. “Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları”;
20. “Bank hesablarının açılması, aparılması və bağlanması Qaydası”na rəy və təkliflər;
21. Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 418-1-ci maddəsi ilə bağlı təkliflər;
22. “İmtiyazlıq səhmlər və investisiya qiymətli kağızlarının konvertasiyası ilə bağlı təkliflər”;
23. “Azərbaycan Respublikasının cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sisteminin effektivliyinin artırılmasına dair Tədbirlər Planı”na dair rəy və təkliflər;
24. “Xüsusi ehtiyat fondlarının yaradılmasına aid edilən məbləğlərin vergitutma məqsədləri üçün gəlirdən çıxılması Qaydası”na rəy və təkliflər;
25. “Maliyyə institutlarında istehlakçıların şikayətlərinə baxılmasına dair” Metedoloji Rəhbərlik;
26. Özünüqiymətləndirmə anketləri ilə bağlı təklif və rəylər.

## İNSAN RESURSLARININ İDARƏ EDİLMƏSİ ÜZRƏ EKSPERT QRUPU

**Qrupun iclasları (işçi qruplarının görüşləri daxil olmaqla) (sayı 2)**

1. 1 mart 2022-ci il, İşçi qrupunun iclası, “Beynəlxalq Qadınlar Günü” münasibətilə “Balans qadınlarla yaranır” adlı tədbirin keçirilməsi, 2022-ci ildə görüləcək tədbirlər və digər cari məsələlərin müzakirəsi;
2. 17 noyabr 2022-ci il, İşçi qrupunun iclası, HR sahəsində xarici təcrübənin öyrənilməsi ilə bağlı səfərlərin təşkili, HR sahəsində müasir texnologiyalar və digər cari məsələlərin müzakirəsi.

**Aidiyyəti qurumlarla və xarici ekspertlərlə görüşlər (sayı – 1)**

1. 15 mart 2022-ci il, Willis Towers Watson” şirkətinin nümayəndəsi ilə əmək haqqı sistemin sorğusunun keçirilməsi ilə bağlı görüşün keçrilməsi.

**Göndərilmiş müraciətlər və məktublar (sayı 6)**

1. No. 22-252, 17 may 2022-ci il, banklara, “Dövlət Məşğulluq Agentliyi tərəfindən “Əmək və Məşğulluq“ altsistemi (ƏMAS) ilə bağlı onlayn vebinar;
2. No. 22-333, 8 iyun 2022-ci il, banklara, 21 iyun tarixində “Qarabağın dirçəlişi – mövcud çağırışlar və yeni imkanlar” mövzusunda müzakirənin aparılması üçün Azərbaycan Banklar

Assosiasiyası (ABA) və Qarabağ Dirçəliş Fondunun (QDF) birgə təşkilatçılığı ilə Şuşa şəhərində ABA-ya üzv bankların rəhbərlərinin işgüzar görüşün keçirilməsi haqqında;

3. No. 22-457, 28 sentyabr 2022-ci il, banklara, Ekspert Qrupu üzvlərinin Şuşa şəhərinə səfərinin təşkil edilməsi;

4. No. 22-612, 30 noyabr 2022-ci il, banklara, Bakı Biznes Universitetinin (BBU) tələbələrinin təcrübəsi haqqında;

5. No. 21-613, 30 noyabr 2022-ci il, BBU, Bakı Biznes Universitetinin (BBU) tələbələrinin təcrübəsi haqqında;

6. 19 avqust 2022-ci il, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin təşkilatçılığı, Azərbaycan Respublikasının Gənclər Fondu və Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının tərəfdaşlığı ilə "İrəliləyİş" layihəsi ilə bağlı müraciət.

**Keçirilmiş konfranslar və seminarlar, təqdimatlar (sayı – 8)**

1. 10 mart - "Beynəlxalq Qadınlar Günü" münasibətilə "Balans qadınlarla yaranır" adlı tədbirin keçirilməsi;
2. 11-13 may - Azərbaycan Banklar Assosiasiyasının (ABA) və Azərbaycan Şahmat Federesiyasının təşəbbüsü ilə Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş banklararası şahmat yarışı;
3. 19 may - "Dövlət Məşğulluq Agentliyi tərəfindən "Əmək və Məşğulluq" altsistemi (ƏMAS) ilə bağlı onlayn vebinar;
4. 2 noyabr - Dövlət Məşğulluq Agentliyi tərəfindən "Əmək və Məşğulluq altsistemi" - ƏMAS platformasının "İşəgötürənin vakansiya təqdimetmə və göndərişlər modulu" ilə bağlı onlayn vebinar;
5. 17 noyabr – Finoco MMC tərəfindən "Adam Milo Veritas" HR tətbiqinin təqdimatı;
6. 13 dekabr - "Nə?Harada?Nə zaman?" Banklararası intellektual yarışmanın təşkili;
7. 27 dekabr - Dövlət Əmək Müfəttişliyi Xidmətinin "Əmək və Məşğulluq" altsisteminin funksionallığı, yenilikləri və işəgötürənlərin üzləşdiyi çətinliklərin həlli yolları" mövzusunda vebinar;
8. 27 dekabr - Dövlət Məşğulluq Agentliyinin təşkilatçılığı, Azərbaycan Respublikasının Gənclər Fondu və Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının tərəfdaşlığı ilə "İrəliləyİş" layihəsi ilə görüş.

## İT VƏ İT TƏHLÜKƏSİZLİK ÜZRƏ

**Qrupun iclasları (işçi qruplarının görüşləri daxil olmaqla) (sayı – 2)**

1. 4 fevral 2022-ci il, "Banklarda informasiya təhlükəsizliyinin idarə edilməsi Qaydası" onlayn görüş;
2. 9 dekabr 2022-ci il "Azərbaycanda Məlumatların İdarə edilməsinin Qiymətləndirilməsi" layihəsi ilə bağlı onlayn görüş.

**Aidiyyəti qurumlarla və xarici ekspertlərlə görüşlər (sayı - 2)**

1. 20 iyun 2022-ci il, Bank hesablarının açılması, Dövlət Vergi Xidməti ilə görüş;

2. 9 dekabr 2022-ci il tarixində "İT və İT Təhlükəsizlik üzrə Ekspert Qrupu"nun üzvü İlqar Əliyev Dünya Bankı və Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin birgə təşkilatçılığı ilə Data-nın İdarə Edilməsinin Qiymətləndirilməsi üzrə layihənin ilkin iclasında iştirak etmişdir.

**Göndərilmiş məktublar, müraciətlər (sayı - 7)**

1. No.22-024, 26 yanvar 2022-ci il, Banklarda informasiya təhlükəsizliyinin idarə edilməsi Qaydası;
2. 22-335, 9 iyun 2022-ci il, Qlink Sense - Data Analitika Platforması - Təqdimat;
3. 22-408, 17 avqust 2022-ci il, Rəqəmsallaşma və kibertəhlükəsizlik;
4. 22-435, 9 sentyabr 2022-ci il, Rəqəmsallaşma və kibertəhlükəsizlik üzrə təkliflər;
5. 22-538, 11 noyabr 2022-ci il, Kibergigiyena üzrə Birinci Beynəlxalq Konfrans;
6. 22-630, 7 dekabr 2022-ci il, "Azərbaycanda Məlumatların İdarə Edilməsinin Qiymətlədirilməsi" layihəsi;
7. 22-635, 12 dekabr 2022-ci il, "Kibergigiyena layihəsinin effektivliyi ve layihədə iştirak imkanları" – vebinar.

**Keçirilmiş konfranslar və seminarlar, təqdimatlar (sayı - 4)**

1. 28 yanvar 2022-ci il, BACEE "Banklarda Kibertəhlükəsizlik" adlı onlayn konfrans;
2. 27 iyul 2022-ci il, Qlik ilə bank analitikası – vebinar;
3. 14 noyabr 2022-ci il, Kibergigiyena üzrə Birinci Beynəlxalq Konfrans;
4. 13 – 14 dekabr 2022-ci il tarixlərində "İT və İT Təhlükəsizlik üzrə Ekspert Qrupu"nun üzvü İlqar Əliyev "Azərbaycanda Kibertəhlükəsizlik ekosisteminin gücləndirilməsi" adlı 2 günlük seminarda iştirak etmişdir.

**TV-lərdə və digər resurslarda video və yazılı müsahibələr, çıxışlar, bank sektoruna aid məqalələr (sayı -2)**

1. 28.04.2022, İlqar Əliyev AzTV telekanalında yayımlanan "Çıxışa doğru" verilişində "Kiberhücumlardan necə qorunmalı?" mövzusunda çıxış etmişdir;

https://www.youtube.com/watch?v=a78a0SlBQF8

2. 29-30 noyabr 2022-ci il tarixində Beynəlxalq Kiber Təhlükəsizlik Gününə həsr olunmuş "Azərbaycan üçün daha güclü kiber ekosistem [More Powerful Cyber Ecosystem for Azerbaijan)" konfransı keçirilmişdir. Konfransda İT və İT təhlükəsizlik ekspert qrupunun üzvü İlqar Əliyev "Davamlı kibertəhlükəsizlik ekosisteminə doğru: Azərbaycan, Türkiyə və İsrail modelləri nümunəsində" panelində **"**Kibertəhlükəsizlik trendləri: 2022 və yaxın gələcək" mövzusunda moderator kimi çıxış etmişdir.

**Konkret məsələlər üzrə yaradılmış işçi qruplar (sayı - 2)**

1. Banklarda İnformasiya təhlükəsizliyi Qaydası - İşçi Qrupu;

2. Azərbaycan Respulikasının "Məlumatların İdarə Edilməsinin Qiymətlədirilməsi" layihəsi İşçi Qrupu.

**Hazırlanmış tövsiyələr və oxşar sənədlər, qrupun fəaliyyəti nəticəsində müvafiq qayda, qanun, prosedur və s. dəyişikliklər (sayı –2)**

1. Rəqəmsallaşma və kibertəhlükəsizlik üzrə təkliflər;
2. "Banklarda informasiya təhlükəsizliyinin idarə edilməsi Qaydası"na dair təkliflər.

## <u>ÖDƏNİŞ SİSTEMLƏRİ VƏ RƏQƏMSAL BANKÇILIQ</u>

**Qrupun iclasları (işçi qruplarının görüşləri daxil olmaqla) (sayı - 26)**

1. 10 yanvar 2022-ci il tarixində Hökümət Ödəniş Portalında olan xidmətlər üzrə MCC kodların müzakirəsi məqsədilə onlayn görüş keçirilmişdir;
2. 21 yanvar 2022-ci il tarixində VM son dəyişikliklər və KOBİA-nın müraciəti müzakirə edilmişdir;
3. 26 yanvar 2022-ci il tarixində Xidmət kodları ilə əlaqədar görüş keçirilmişdir;
4. 31 mart 2022-ci il tarixində Xidmət Kodları üzrə hazırlanmış yekun bölgünün müzakirəsi məqsədilə onlayn görüş keçirilmişdir;
5. 1 aprel 2022-ci il tarixində korporativ kartlarla əlaqədar məhdudiyyətlərin ("card-to-card" tipli ödəniş əməliyyatları, nağdlaşdırma, həmçinin rəqəmsal ödənişlər) müzakirəsi məqsədilə Hüquq Ekspert qrupu üzvləri ilə birgə görüş keçirilmişdir;
6. 7 aprel 2022-ci il tarixində xidmət kodları ilə əlaqədar növbəti görüş keçirilmişdir;
7. 29 aprel 2022-ci il tarixində Cash in terminalları ilə əlaqədar görüş keçirilmişdir;
8. 12 may 2022-ci il tarixində Korporativ kartlarla əlaqədar ikinci görüş keçirilmişdir;
9. 19 may 2022-ci il tarixində "Ödəniş sistemləri və rəqəmsal bankçılıq üzrə Ekspert Qrupu"nun görüşü keçirilmişdir;
10. 8 iyun 2022-ci il tarixində Cash in terminallar ilə əlaqədar işçi qrupun görüşü keçirilmişdir;
11. 5 iyul 2022-ci il tarixində Azərbaycan Banklar Assosiasiyası (ABA) nəzdində fəaliyyət göstərən "Ödəniş sistemləri və rəqəmsal bankçılıq üzrə Ekspert Qrupu"nun növbəti iclası keçirilmişdir;
12. 19 iyul 2022-ci il tarixində ödəniş kartları və rəqəmsal ödənişlər sahəsində fırıldaqçılıq əməliyyatları üzrə qarşılıqlı məlumat mübadiləsinin təşkili və atılacaq addımların birgə müəyyən edilməsi məqsədilə yaradılmış İşçi Qrupun iclası keçirilmişdir;
13. 17 avqust 2022-ci il tarixində mobil bankçılıqda yaşanan fırıldaqçılıq hallarına qarşı mübarizə tədbirləri birgə müzakirə edilmişdir;
14. 25 avqust 2022-ci il tarixində Ekspert Qrupunun iclası keçirilmişdir;
15. 26 avqust 2022-ci il tarixində Card to card əməliyyatlarına dair tövsiyələrlə bağlı görüş keçirilmişdir;
16. 30 avqust 2022-ci il tarixində BKM Kollektiv Sazişin müzakirəsi məqsədilə görüş keçirilmişdir;
17. 9 sentyabr 2022-ci il tarixində Fraud üzrə İşçi Qrupun onlayn iclası keçirilmişdir;

18. 12 sentyabr 2022-ci ildə BKM Kollektiv Sazişin müzakirəsi məqsədilə onlayn görüş keçirilmişdir;

19. 12 sentyabr 2022-ci il tarixində Ekspert Qrupunun iclası keçirilmişdir;

20. 15 sentyabr 2022-ci il tarixində "Card-to card" əməliyyatları üzrə bəzi risklərin idarə edilməsi ilə əlaqədar hazırlanmış praktiki tövsiyələrin müzakirəsi məqsədilə görüş keçirilmişdir;

21. 26 sentyabr 2022-ci il tarixində Ekspert Qrupunun iclası keçirilmişdir;

22. 4 noyabr 2022-ci il tarixində mobil bankçılıq xidməti üzrə təhlükəsizliyin təmin olunmasına dair tövsiyələrin müzakirəsi məqsədilə görüş keçirilmişdir;

23. 5 noyabr 2022-ci il tarixində Ödəniş kartlarının emissiyası və istifadə Qaydaları"na dair təkliflərin müzakirəsi məqsədilə Ekspert Qrupunun görüşü keçirilmişdir;

24. 26 dekabr 2022-ci il tarixində Banklararası Kart Mərkəzinin Kollektiv Sazişinə nəzərdə tutulan dəyişikliklər müzakirə olunmuşdur;

25. 27 dekabr 2022-ci il tarixində Ekspert Qrupunun cari il üzrə sonuncu iclası keçirilmişdir;

26. 28 dekabr 2022-ci il tarixində Ödəniş kartlarından istifadə üzrə maarifləndirmə İşçi Qrupunun ilk görüşü keçirilmişdir.

**Aidiyyəti qurumlarla və xarici ekspertlərlə görüşlər (sayı - 26)**

1. 23 avqust 2022-ci il tarixində Azərbaycan Banklar Assosiasiyası (ABA) nəzdində fəaliyyət göstərən "Komplayns Ekspert Qrupu"nun, "Ödəniş sistemləri və rəqəmsal bankçılıq Ekspert Qrupu"nun və Mərkəzi Bankın nümayəndələrinin iştirakı ilə online görüş keçirilib. Görüş zamanı "kart əməliyyatları" mövzusuna dair geniş tərkibdə praktiki yanaşmaların müzakirəsi, müvafiq mövzular barədə fikir mübadiləsi aparılıb. Əlavə olaraq görüşdə Komplayns Ekspert Qrupunun nümayəndələri tərəfindən hazırlanan tövsiyə sənədinin müzakirəsi aparılıb;

2. 7 yanvar 2022-ci il tarixində "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunun qəbul olunması ilə qumar oyunlarına dair tətbiq olunan məhdudiyyətlərə dair Mərkəzi Bankın nümayəndəsinin iştirakı ilə görüş keçirilmişdir;

3. 8 fevral 2022-ci il tarixində Xarici valyutada hesablar vasitəsilə aparılan əməliyyatlarla bağlı Mərkəzi Bankın nümayəndələri ilə birgə görüş keçirilmişdir;

4. 17 fevral 2022-ci il tarixində mərc oyunları ilə əlaqədar dəyişikliyin Dövlət Vergi Xidməti və Mərkəzi Bank nümayəndələri ilə birgə müzakirəsi keçirilmişdir;

5. 24 may 2022-ci il tarixində "Azərbaycanda pul köçürmələrinin sosial-iqtisadi təsirlərinin gücləndirilməsi" layihəsi üzrə tədqiqat qrupunun rəhbəri, beynəlxalq ekspertlə görüş keçirilmişdir;

6. 25 may 2022-ci il tarixində çiplərin yenilənməsi ilə əlaqədar məsələlər Visa ilə müzakirə edilmişdir;

7. 14 iyun 2022-ci il tarixində "Bankalararası Kart Merkezi"nin Təhlükəsizlik həlləri üzrə departamentinin direktoru Umut Önceler və "Yapı Kredi Bank A.Ş."nin Fırıldaqçılıq hallarının qarşısının alınması departamentinin direktoru Halis Köseoğlu ilə "Ödəniş sistemləri və rəqamsal bankçılıq" Ekspert Qrupunun üzvləri arasında təcrübə mübadiləsi baş tutmuşdur;

8. 24 iyun 2022-ci il tarixində Beynəlxalq Miqrasiya təşkilatı ilə görüş keçirilmişdir;

9. 27 iyul 2022-ci il tarixində fırıldaqçılıq halları ilə əlaqədar Mərkəzi Bankın nümayəndələri ilə birgə onlayn görüş keçirilmişdir;

10. 5 avqust 2022-ci il tarixində Bank hesabları üzərindən elektron ticarət fəaliyyətəri ilə bağlı aparılan əməliyyatlara dair məlumatların Dövlət Vergi Xidmətinə (DVX) ötürülməsi və ölkə

üzrə elektron ticarət statistikasının tərtib edilməsi prosesinin birgə müzakirəsi məqsədilə DVX ilə birgə görüş keçirilmişdir;

11. 23 avqust 2022-ci il tarixində Azərbaycan Banklar Assosiasiyası (ABA) nəzdində fəaliyyət göstərən "Komplayns Ekspert Qrupu"nun, "Ödəniş sistemləri və rəqəmsal bankçılıq Ekspert Qrupu"nun və Mərkəzi Bankın nümayəndələrinin iştirakı ilə online görüş keçirilib. Görüş zamanı "kart əməliyyatları" mövzusuna dair geniş tərkibdə praktiki yanaşmaların müzakirəsi, müvafiq mövzular barədə fikir mübadiləsi aparılıb. Əlavə olaraq görüşdə Komplayns Ekspert Qrupunun nümayəndələri tərəfindən hazırlanan tövsiyə sənədinin müzakirəsi aparılıb;

12. 30 sentyabr 2022-ci il tarixində Dünya Bankının nümayəndələri ilə görüş keçirilmişdir;

13. 26 oktyabr 2022-ci il tarixində "ING Bank"ın nümayəndələri ilə görüş keçirilmişdir;

14. 26 oktyabr 2022-ci il tarixində "Ziraat Bank"ın nümayəndələri ilə görüş keçirilmişdir;

15. 26 oktyabr 2022-ci il tarixində "Aktif Bank" nümayəndələri ilə görüş keçirilmişdir;

16. 26 oktyabr 2022-ci il tarixində "İŞ Bankası"nın nümayəndələri ilə görüş keçirilmişdir;

17. 27 oktyabr 2022-ci il tarixində "Yapı Kredi Bank"ın nümayəndələri ilə görüş keçirilmişdir;

18. 27 oktyabr 2022-ci il tarixində "Banklararası Kart Merkezi"nin nümayəndələri ilə görüş keçirilmişdir;

19. 27 oktyabr 2022-ci il tarixində "Banklararası Kart Merkezi"nin nümayəndələri ilə görüş keçirilmişdir;

20. 27 oktyabr 2022-ci il tarixində "Vakıf Bank"ın nümayəndələri ilə görüş keçirilmişdir;

21. 27 oktyabr 2022-ci il tarixində "Token" şirkətinin nümayəndələri ilə görüş keçirilmişdir;

22. 27 oktyabr 2022-ci il tarixində "VISA" Beynəlxalq Ödəniş Sisteminin nümayəndələri ilə görüş keçirilmişdir;

23. 28 oktyabr 2022-ci il tarixində "Payten" şirkətinin nümayəndələri ilə görüş keçirilmişdir;

24. 28 oktyabr 2022-ci il tarixində "Bileşik Ödeme Hizmetleri" şirkətinin nümayəndələri ilə görüş keçirilmişdir;

25. 28 oktyabr 2022-ci il tarixində "Paycell" şirkətinin nümayəndələri ilə görüş keçirilmişdir;

26. 7 dekabr 2022-ci il tarixində Ekspert Qrupu tərəfindən Türkiyə təcrübəsi əsasında hazırlanan təkliflərin Azərbaycan Respublikasının Mərkəzi Bankının nümayəndələri ilə birgə müzakirəsi məqsədilə görüş keçirilmişdir.

**Göndərilmiş müraciətlər və məktublar (sayı - 59)**

1. No.22-009, 13 yanvar 2022-ci il, Banklara, Mərc oyunları ilə əlaqədar dəyişiklik;
2. No.20-010, 13 yanvar 2022-ci il, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Mərc oyunları;
3. No.22-025, 26 yanvar 2022-ci il, ARMB, BKM Kollektiv Saziş;
4. No.22-026/27 26 yanvar 2022-ci il, VISA, MasterCard, Mərc oyunları ilə əlaqədar dəyişiklik;
5. No.22-035 , 3 fevral 2022-ci il, ARMB, Mərkəzi Bankın saytında açıqlanan məlumatlar;
6. No.22-042, 3 fevral 2022-ci il, ARMB, "Bank hesablarının açılması, aparılması və bağlanması Qaydası"na dair;
7. No.22-097, 1 mart 2022-ci il, Dövlət Vergi Xidməti, Mərc oyunları ilə əlaqədar dəyişiklik;
8. No.22-100, 1 mart 2022-ci il, Banklara, BKM xidmət haqlarının dəyişdirilməsi;

9. No.22-142, 15 mart 2022-ci il, Banklara, E-KYC sistemi;
10. No.22-146 17 mart 2022-ci il, Banklara, Rəqəmsal Ödəniş Ekosistemi;
11. No.22-174, 29 mart 2022-ci il, Banklara, E-KYC Görüş;
12. No.22-210, 25 aprel 2022-ci il, ARMB, Məsafədən hesabların açılması qaydası təqdimat;
13. No.22-228, 29 aprel 2022-ci il, Banklara, Maliyyə və qeyri-maliyyə xidmətləri üzrə bölgü;
14. No.22-232, 6 may 2022-ci il, Banklara, "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Azərbaycan Respublikasının Qanun layihəsi;
15. No.22-248, 16 may 2022-ci il, EQ üzvləri, iclasın keçirilməsi;
16. No.22-249, 17 may 2022-ci il, ARMB, "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Azərbaycan Respublikasının Qanun layihəsinə dair təkliflər;
17. No.22-253, 18 may 2022-ci il, Banklara, Məsafədən bank hesablarının açılması qaydalarına dair təqdimatın keçirilməsi;
18. No.22-257, 24 may 2022-ci il, Banklara, Elektron bankçılıq xidmətləri üzrə minimal xidmət zənbili;
19. No.22-332, 8 iyun 2022-ci il, banklara, BKM Kollektiv Saziş;
20. No.22-353, 30 iyun 2022-ci il, banklara,Fırıldaqçılıq halları ilə mübarizə İşçi Qrupu ilə əlaqədar;
21. No.22-354, 30 iyun 2022-ci il, EQ üzvləri, İclasın keçirilməsi;
22. No.22-355, 1 iyul 2022-ci il, banklara, Elektron bankçılığa e-qaimə sisteminin inteqrasiyası;
23. No.22-357, 4 iyul 2022-ci il, banklara, Elektron bankçılıq üzrə xidmətlər zənbili;
24. No.22-365,22-368 8 və 13 iyul 2022-ci il, Banklara, Dövlət Vergi Xidməti, Bankların Mastercardla münasibətlərində ikiqat vergitutmanın aradan qaldırılması;
25. No.22-379, 22 iyul 2022-ci il, Banklara, Rəqəmsal bank məlumatları;
26. No.22-389, 2 avqust 2022-ci il, Banklara, Fırıldaqçılıq halları barədə məlumatlandırma;
27. No.22-390 , 2 avqust 2022-ci il, banklara, Elektron ticarət zamanı ödənişlər ABA-DVX görüş;
28. No.22-395, 5 avqust 2022-ci il, Banklara, BKM kollektiv sazişə dair;
29. No.22-396, 5 avqust 2022-ci il, banklara, Fraud məlumatlandırma üçün tövsiyə mətn;
30. No.22-399, 9 avqust 2022-ci il, banklara, POS terminalların aktivliyi;
31. No.22-406, 22-407, 16 avqust 2022-ci il, Millikart, Azəricard, Fraud işçi qrupa nümayəndə;
32. No.22-408, 17 avqust 2022-ci il, banklara, Rəqəmsallaşma və kibertəhlükəsizlik;
33. No.22-415, 23 avqust 2021-ci il, AR İqtisadiyyat Nazirliyi, "Nağdsız hesablaşmalar haqqında Qanun"a dair;
34. No.22-418, 25 avqust 2022-ci il, Banklara, "Azərbaycanda bankçılığın gələcəyi" adlı vebinar;
35. No.22-419, 25 avqust 2022-ci il, AZFINA, Fraud barədə ictimaiyyətin məlumatlandırılması;
36. No.22-421, 22-424, 30 avqust 2022-ci il, Banklara, ARMB, Card-to-card əməliyyatları üzrə praktiki tövsiyələr;
37. No.22-425, 30 avqust 2022-ci il, banklara, POS terminalların aktivliyinin yüksəldilməsi;
38. No.22-434, 7 sentyabr 2022-ci il, ARMB, BKM Kollektiv Sazişə dair;

39. No.22-435, 7 sentyabr 2022-ci il, ARMB, Rəqəmsallaşma və kibetəhlükəsizlik üzrə təkliflər;
40. No.22-436, 12sentyabr 2022-ci il, Türkiyə Banklar Birliyi, Ekspert Qrupunun Türkiyə səfəri;
41. No.22-442, 13 sentyabr 2022-ci il, Banklara, Milli Ödəniş Şurasının Əsasnaməsinin layihəsi;
42. No.22-447, 21 sentyabr 2022-ci il, AR İqtisadiyyat Nazirliyi, Elektron ticarətdə vergitutma;
43. No.22-452, 23 sentyabr 2022-ci il, ARMB, Milli Ödəniş Şurası;
44. No.22-462-486, 30 sentyabr 2022-ci il, banklara, Türkiyə səfəri (24 məktub);
45. No.22-490, 4 oktyabr 2022-ci il, Banklara,"Ödəniş kartlarının emissiyası və istifadə Qaydaları"na dair təkliflər;
46. No.22-497, 13 oktyabr 2022-ci il, Banklara, Card-to-card tövsiyə;
47. No.22-541, 11 noyabr 2022-ci il, ARMB, Ödəniş kartlarının emissiyası və istifadə Qaydaları təkliflər;
48. No.22-572, 16 noyabr 2022-ci il, banklara, ÖSRB Ekspert Qrupunun Türkiyə Səfərinə dair Arayış;
49. No.22-603, 23 noyabr 2022-ci il, ARMB, Türkiyə təcrübəsi təkliflər;
50. No.22-611, 30 noyabr 2022-ci il, VISA, Double taxation;
51. No.22-617, 2 dekabr 2022-ci il, ARMB, Xərclərin optimallaşdırılması;
52. No.22-618, 2 dekabr 2022-ci il, banklara, Maliyyə Savadlılığı Strategiyası;
53. No.22-620, 2 dekabr 2022-ci il, Banklara, Məsafədən bank hesablarının açılması;
54. No.22-621, 5 dekabr 2022-ci il, Banklara, Fondlara ödənişlər;
55. No.22-624 , 5 dekabr 2022-ci il, AZFINA, MCC kodların düzgün təyini;
56. No.22-627, 5 dekabr 2022-ci il, Banklara, Maliyyə Savadlılığı Strategiyası İşçi Qrup;
57. No.22-633, 12 dekabr 2022-ci il, Banklara, Fraud tövsiyələr;
58. No.22-640, 20 dekabr 2022-ci il, banklara, Visa Inc BƏƏ nümayəndəliyi ilə müqavilə;
59. No.22-648-658, 26 dekabr 2022-ci il, banklara, Ekspertlərin fəaliyyətinə dair (10 məktub).

**Keçirilmiş konfranslar və seminarlar, təqdimatlar (sayı - 6)**

1. 24 fevral 2022-ci il tarixində Azərbaycan Banklar Assosiasiyası və "DDTECH" şirkəti tərəfindən "Bank işlərində rəqəmsal transformasiya" mövzusunda vebinar keçirilmişdir. Qeyd edilən mövzuda şirkətin baş direktorları Onur Turan, Onur Kartal və məhsul üzrə direktor Miray Ece Karacık çıxış etmişdir;
2. 1 aprel 2022- ci il tarixində "E-KYC sistemi"nin müzakirəsi məqsədi ilə Azərbaycan Respublikası Mərkəzi Bankının nümayəndələri ilə görüş keçirilmişdir;
3. 18 aprel 2022-ci il tarixində Simon-Kucher & Partners şirkəti tərəfindən "Payment systems" mövzusunda seminar keçirilmişdir;
4. 20 may 2022-ci il məsafədən hesabların açılması qaydalarına dair təqdimat baş tutmuşdur;
5. 1 sentyabr 2022-ci il tarixində "Azərbaycanda bankçılığın gələcəyi" adlı vebinar keçirilmişdir;
6. 28 sentyabr 2022-ci il tarixində VISA tərəfindən "Token əməliyyatlarında fraud menecmenti üzrə ən yaxşı təcrübələr" mövzusunda vebinar keçirilmişdir.

**TV-lərdə və digər resurslarda video və yazılı müsahibələr, çıxışlar, bank sektoruna aid məqalələr (sayı - 9)**

1. Ekspert Qrupu üzvü Rasim Xammədov 18 fevral 2022-ci il tarixində baş tutmuş "Whelp Networking Day" tədbirində "Rəqəmsal dövründə məsafədən xidmət və satış Texnikaları" mövzusunda təqdimatla çıxış etmişdir;
2. Azərbaycan Respublikasının Gənclər Fondunun dəstəyi, "Davam" Gənclər Hərəkatının təşkilatçılığı ilə 18-22 iyul tarixlərində "Gənc liderlər üçün Yay Universiteti" çərçivəsində "Gənc liderlərin Zirvə Toplantısı" keçirilib. Tədbirdə ABA-nın eksperti Rasim Xammədov "Maliyyə bazarlarında rəqəmsallaşma tendensiyaları və innovasiyanın tətbiqi" mövzusunda təqdimatla çıxış etmişdir;
3. 6-7 oktyabr 2022-ci il tarixində Avstriyanın Vyana şəhərində baş tutmuş beynəlxalq "Bankçılıq 4.0 rəqəmsallaşma və transformasiya Sammit"ndə Ekspert Qrupu"nun sədri Tamerlan Rüstəmov "Azərbaycanda rəqəmsal ödəniş ekosistemi və əsas trendlər" mövzusunda təqdimatla çıxış etmişdir;
4. Fintex Sammit və Beynəlxalq Bankçılıq Forumu ilə bağlı çıxışlar;
